QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 095 (6295) 2 iyun 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi İnstaqram səhifəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

"Bu gün - 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Bu nurlu, gözəl gün münasibətilə bütün balaları səmimi-qəlbdən təbrik edirəm! Yer üzündəki hər bir uşağa möhkəm cansağlığı, sevgi, xoş günlər, qayğısız uşaqlıq və xoşbəxt həyat arzulayıram! Uca Tanrı uşaqları bütün qada-baladan qorusun!".

## Qalibliyin amili - "Biz birlikdə güclüyük!"

*Prezident İlham Əliyev: "Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir"*



Bax 2

## "Zəngəzur dəhlizi domino daşıdır"



"Son günlər Nikol Paşinyan Zəngəzur dəhlizi ilə bağlı sərsəm bəyanatlar səsləndirir. Əlbəttə...

Bax 7

## "Pakistan qardaş Azərbaycanın yanında olmasından qürur duyur"



**Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Məktubda deyilir:**

**"Zati-aliləri.**

**Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi və xoş arzularımı...**

Bax 6

## Ermənistan telekanalı: Kərki Azərbaycan kəndidir

**Ermənistanın "H1" telekanalı Naxçıvanın Kərki kəndi ilə bağlı reportaj hazırlayıb. "İki sahil" xəbər verir ki, reportajda Kərkinin Azərbaycana məxsus olduğu diqqətə çatdırılıb. Sosial şəbəkələrin erməni...**




Bax 3

## Rusiyalı ekspert: Ermənistan dəhlizi açmağa məcburdur!



**Rəsmi Bakının nəqliyyat kommunikasiyaları ilə yanaşı, Zəngəzur dəhlizinin açılması, eləcə də Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiyası və delimitasiyasındakı mövqeyi dəyişilməz qalır. Əbəs deyil ki, bununla bağlı Azərbaycanın xarici işlər...**

Bax 11

## Dmitri Savelyev: "Azərbaycanın qarşısında nadir imkanlar yaranır"



**Respublika Günü 1918-ci ildə öz ölkəsinin müstəqilliyini elan etmiş Azərbaycan xalqının tarixində ən mühüm hadisələrdən biridir. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası...**

Bax 3

## İntihar hallarının artması bu amillərlə bağlıdır



Bax 12

## Medianın İnkişafı Agentliyi qəzetlər üçün dəstək layihəsi elan edib



Bax 7

## Sorosun yeni Ermənistan layihəsi - Azərbaycana düşmənçiliyin gücləndirilməsi



Bax 13

## DİN sosial şəbəkələrlə bağlı məlumat yaydı




Bax 16

# Qalibliyin amili - “Biz birlikdə güclüyük!”

*Prezident İlham Əliyev: “Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir”*

**COVID-19 pandemiyası zamanı hər bir dövlətin öz strategiyası, koronavirusa qarşı mübarizədə fərqli yanaşma tərzi və öz metodları mövcud oldu. Şübhəsiz ki, indi hər bir ölkə öz vətəndaşlarını böhrandan az itki ilə çıxarmağa çalışır. Postsovet məkanı da koronavirus pandemiyasından əziyyət çəkən bölgələr sırasındadır. Lakin bölgənin lider dövlətlərindən olan Azərbaycanın pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir.**



Belə ki, Azərbaycanda koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi. Azərbaycanda bütün sahələrdə sabitlik təmin edildi, əhalinin məşğulluq problemləri müsbət həllini tapdı və sadə vətəndaşın rifah halı iqtisadi inkişafının əsas prioritetlərindən birinə çevrildi. Koronavirus pandemiyası başlamazdan öncə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə kölgə iqtisadiyyatına qarşı ciddi tədbirlər görüldü, şəffaflıq təmin edildi və dövlət orqanlarının fəaliyyətində informasiya texnologiyalarının tətbiqi təmin edildi, dövlət xidmətləri sahəsində mərkəzləşdirilmiş elektron məlumat sistemi yaradıldı. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə vaxtında aparılan düzgün siyasət və atılan zəruri addımlar tektonik fəlakət zamanı öz sözünü deyə bildi.

Mayın 31-də Ümumdünya Səhiyyə Assambleyasının “Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması” mövzusuna həsr edilmiş 74-cü sessiyasında da dövlət başçısı Azərbaycanda pandemiya ilə mübarizədən danışdı.

### “Ölkəmizdə görülmüş müfəssəl tədbirlər nəticəsində karantin rejimi tədricən yumşaldılmışdır”

“İlk növbədə, davam etməkdə olan COVID-19 pandemiyası ilə əlaqədar qlobal səhiyyə gündəliyi üçün olduqca çətin bir dönəmdə baş tutan Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında çıxış etməklə bağlı dəvətə görə minnətdarlığımı bildirmək istərdim”. Bunu Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun dəvəti əsasında mayın 31-də sessiyanın bağlanış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev videoformatda çıxışında deyib.

“Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizənin əlaqələndirilməsi də daxil olmaqla, qlobal səhiyyə sahəsində idarəçiliklə bağlı aparıcı rolunu və səylərini dəstəkləyir. Pandemiyanın lap ilk günlərindən Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilmişdir. Qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edilmişdir. Ölkədə COVID xəstələrinin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayı 10 mindən artıqdır. Bununla yanaşı, COVID-in mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edilmişdir”, - dövlət başçısı bildirib.

Prezident İlham Əliyev onu da bildirib ki, ölkəmizdə görülmüş müfəssəl tədbirlər nəticəsində karantin rejimi tədricən yumşaldılmışdır. Azərbaycan Prezidenti cari ilin yanvar ayının ortalarından etibarən peyvənd kampaniyasına başlanıldığını deyib: “Biz cari ilin yanvar ayının ortalarından etibarən peyvənd kampaniyasına başlamışıq və artıq 99.94 faizi “Sinovak”, qalanı isə “AstraZeneca” və “Sputnik” olmaqla, 2 milyon doza peyvənd istifadə edilmişdir. Bu rəqəm əhalimizin 20 faizini təşkil edir. 18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü olaraq peyvənd oluna bilərlər. Peyvənd olunanlara COVID-19 pasportları təqdim edilir”.

### “Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır”

“Biz 2021-ci ilin “Səhiyyə işçiləri ili” elan edilməsini alqışlayırıq. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə olduqca səmərəli əməkdaşlıq edir”,- deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, ötən il Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır. Dövlət başçısı Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirdiyini deyib: “Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış etmişdir. Bu sırada Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısını və 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını ayrıca qeyd etmək olar. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir. Bununla yanaşı, koronavirusla əlaqədar 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərilmişdir”.

Prezident İlham Əliyev görüşü zamanı koronavirusa qarşı peyvəndlərin bölüşdürülməsində müşahidə edilən “peyvənd millətçiliyi”, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyin narahatlıq doğurduğunu deyib: “Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir. Davam edən “peyvənd millətçiliyi”, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür”.

Prezident İlham Əliyev bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürdüyünü və həmin qətnamənin cari ilin mart ayında yekdilliklə qəbul olunduğunu deyib: “Bu xüsusda, biz inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırırıq”.

Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin atdığı hər bir uğurlu addımı xalqımızda nikbinlik yaradır. Xalqımızın öz Prezidenti ətrafında birləşməsi və ölkə rəhbərini dəstəkləməsi pandemiya üzərində qələbəni təmin edən başlıca amillərdən biridir. Bu gün bütün dünya Azərbaycanın təcrübəsini mənimsəyir. “Biz birlikdə güclüyük” şüarı ilə pandemiyaya qarşı savaşan Azərbaycan görünməmiş nümunə yarada bilib. İnanırıq ki, bu çətinliklər arxada qalacaq, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımız daha gözəl günlər yaşayacaq. Dövlət başçımızın dediyi kimi: “Biz pandemiyanın öhdəsindən yalnız birlikdə gələcək və normal həyata qayıdacağıq”.

**RƏFİQƏ HÜSEYNOVA**

---

## Mahmud Vaezi: Azərbaycan-İran əlaqələrinin inkişafı xalqlarımızın maraqlarına uyğundur

**Azərbaycan Respublikasının Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə müştərək komissiyanın həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana səfəri çərçivəsində bu ölkənin Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Şahin Mustafayev İran ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqaməti olduğunu bildirib. Qeyd olunub ki, son illər qarşılıqlı əlaqələr yüksələn xətlə inkişaf edir. Qarşılıqlı əməkdaşlıq əlaqələrinin yüksək səviyyəyə çatmasında hər iki ölkənin prezidentləri mühüm rol oynayıblar. Məhz prezidentlərin siyasi iradəsinin nəticəsidir ki, münasibətlərimiz müsbət istiqamətdə irəliləyir. Azərbaycan ilə İran arasında nəqliyyat, kənd təsərrüfatı, sənaye, turizm və digər sahələri əhatə edən əlaqələr mövcuddur. Bu əlaqələrin daha da inkişafı üçün hər iki ölkənin böyük potensialı var və bu potensialdan səmərəli istifadə edilməlidir.



Şahin Mustafayev diqqətə çatdırdı ki, koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, ticarət əlaqələrini daha da genişləndiriləcək. Pandemiya dövründə ticarət əlaqələrinin və tranzit yükdaşımaların dayandırılmaması münasibətlərimizin xoşməramlı olduğunu nümayiş etdirir.

İranın Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi nümayəndə heyətinin üzvlərini 28 May - Respublika Günü münasibətilə təbrik edərək bildirib ki, İran-Azərbaycan əlaqələri strateji səviyyəyə yüksəlib. Qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi hər iki xalqın maraqlarına uyğundur və bu münasibətlər ildən-ilə genişlənməlidir. Nəqliyyat və energetika sahələrində birgə layihələr var ki, onların da reallaşdırılması üçün işləri sürətləndirmək lazımdır.

Mahmud Vaezi vurğulayıb ki, İran hər zaman Azərbaycanın yanında olacaq və qarşılıqlı münasibətlərin inkişafı üçün bütün imkanlardan istifadə edəcək. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# Dmitri Savelyev: "Azərbaycanın qarşısında nadir imkanlar yaranır"

**Respublika Günü 1918-ci ildə öz ölkəsinin müstəqilliyini elan etmiş Azərbaycan xalqının tarixində ən mühüm hadisələrdən biridir. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində müstəqil Azərbaycanın uğurları və Rusiya ilə münasibətləri barədə söhbət açıb.**

*-Dmitri İvanoviç, Siz son 30 ildə müstəqil Azərbaycanın inkişafını necə xarakterizə edərdiniz?*

-Azərbaycan Respublika Gününün növbəti ildönümünü öz tarixi torpaqlarını özünə qaytarmış qalib dövlət kimi qürur hissi ilə qarşılayır. Bu gün Azərbaycan tam müstəqil daxili və xarici siyasət yürüdən dövlətlərdən biridir.

Siyasi müstəqillik iqtisadi müstəqilliyinin nəticə olub. Sənayenin və aqrar sektorun inkişafı, neft və qazın nəqli, dəmiryol kommunikasiyalarının nizamlanması ilə bağlı genişmiqyaslı layihələrin həyata keçirilməsi sayəsində Azərbaycanda sanballı iqtisadi potensial formalaşıb.

*-Koronavirus pandemiyası Rusiya-Azərbaycan əlaqələrinin inkişafına necə təsir edib?*

-2020-ci ildə pandemiya səbəbindən qarşılıqlı əmtəə dövriyyəsi bir qədər azalmışdı, lakin indi bu göstərici sürətlə bərpa olunur: cari ilin birinci rübündə ölkələrimiz arasında ticarətin həcmi 3,5 faiz artaraq təqribən 680 milyon dollara bərabər olub.

Lakin təəssüf ki, sərhədlərin bağlanması bir sıra mühüm tədbirlərin, məsələn, Bakıda Regionlararası Forumun, Rusiyada Azərbaycan Mədəniyyəti Günlərinin və Gənclik Təşəbbüsləri Forumunun keçirilməsinə imkan vermədi. Bununla belə, düşünürəm ki, tezliklə qarşılıqlı fəaliyyətin adi formatına qayıda biləcəyik. Rusiyadan Azərbaycana 40 min doza "Sputnik V" vaksini tədarük edilib. Bu, 300 min doza vaksin tədarükü barədə bağlanmış müqavilə çərçivəsində ilk partiyadır. Rusiya vaksininin Azərbaycanda istehsal edilməsinə dair danışıqlar gedir. Bu, əhalinin vaksinləşdirilməsini daha da fəallaşdırmağa imkan verəcək.

Normallaşmanın ilk əlamətləri artıq hiss edilir: Sankt-Peterburq və Orenburqdan, Krasnoyarsk və Samaradan, həmçinin Nijni Novqoroddan Bakıya aviareyslər bərpa olunur.



*-Son hadisələr göstərir ki, dövlətlərarası münasibətlər distant formatdan ənənəvi formata qayıdır. Siz bu barədə nə fikirdəsiniz?*

-Həqiqətən, İqtisadi məsələlər üzrə Hökumətlərarası Komissiyanın 19-cu iclası uğurla keçdi, Azərbaycanın Baş naziri Əli Əsədovun Moskvaya səfəri isə müxtəlif sahələrdə rəqəmsallaşma məsələlərinə həsr edilmişdi. Həmin səfər çərçivəsində fitosanitar xidmətdə elektron sistemlərin inteqrasiyası və gömrük müşayiəti barədə sazişlər imzalanıb. Şübhəsiz, bu sazişlər ticarətdə maneələri azaltmağa imkan verəcək. Fərəhli haldır ki, həm Rusiya, həm də Azərbaycan tərəfi qarşılıqlı münasibətləri daha da inkişaf etdirmək və möhkəmləndirmək əzmindədir. Yüksək səviyyəli növbəti görüş çərçivəsində imzalanacaq yeni sənədlər paketi üzərində iş aparılır.

*-İki ölkənin iqtisadi sahədə əməkdaşlığında hansı yeni meylləri qeyd etmək istərdiniz?*

-Pandemiya şəraiti eyni zamanda yeni reallıqlar və yeni imkanlar da yaradıb. Rusiya-Azərbaycan ticarətində qeyri-xammal məhsulların nisbi payının artırılması, habelə müştərək istehsalat zəncirləri yaratmaq meyli müşahidə olunur. Buna nümunə kimi QAZ markalı yük avtomobillərinin yığılması, helikopterlərə xidmət mərkəzi, "Rostselmaş" taxılyığan kombaynların yığılması üzrə istehsalat sahələrinin işə başlamasını göstərmək olar. Azərbaycanın aqrar mütəxəssisləri ilə Rostov-Dondakı zavodun əməkdaşlığını xüsusi qeyd etmək istərdim. Azərbaycanda 9 iqlim zonası var və bizim konstruktorlar yeni texnika yaradarkən həmin zonalardan hər birinin xüsusiyyətlərini nəzərə alırlar. Məsələn, "TUKAN" adlı çeşidləyici press qurğusu məxsusi olaraq dağ yamacları və çala-çuxurlu ərazi üçün modifikasiya edilib. Rostovlular cari ildə Azərbaycana 80 vahid qoşma və asma texnika göndərəcəklər. 2020-ci ildə belə əməkdaşlıq sayəsində ölkələrimiz arasında aqrar-sənaye kompleksi məhsulları dövriyyəsi 6 faiz artıb.

*-Sizin fikrinizcə, Azərbaycanın özünə qaytardığı torpaqlarda bərpa işləri Rusiya-Azərbaycan iqtisadi əlaqələrinə necə təsir göstərəcək?*

-Mən müharibədən sonrakı dövrdə yaranan yeni imkanları yuxarıda qeyd etdim. Azərbaycan işğaldan azad edilmiş ərazilərin inkişafına 2021-ci ildə 2,2 milyard manat sərmayə qoyulmasını nəzərdə tutur. Bu isə əməkdaşlıq və qarşılıqlı ticarət üçün nadir imkanlar deməkdir. Məsələn, azərbaycanlı inşaatçılar və yolsalanlar çuqundan və poladdan hazırlanmış məmulatlar, su qızdırıcı qazanlar, metal və plastik tor tədarükündə çox maraqlıdırlar. Bu məhsullar Bryansk vilayətindəki müəssisələrdə hazırlanır. Onu da nəzərə almaq lazımdır ki, indi Azərbaycanda eyni vaxtda 3 aeroport tikilir, yüzlərlə kilometr uzunluğunda dəmiryol və avtomobil yolları salınır. Rusiyanın 80-ə yaxın regionunun Azərbaycan ilə əməkdaşlıq etdiyini nəzərə alsaq, bu tədbirlərin multiplikativ effektinin ölkələrimizin iqtisadiyyatı üçün nə dərəcədə əlverişli olacağını təsəvvür etmək çətin deyil.

# İspan mətbuatı: Azərbaycanın Ermənistan tərəfindən viran edilmiş regionları bərpa və inkişaf erasına qədəm qoyur

**İspaniyada çıxan beynəlxalq iqtisadiyyat və maliyyə jurnalının "elmundofinanciero.com" saytında "Azərbaycanda Respublika Günü sülh şəraitində qeyd edilir" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Kral Xuan Karlos adına Universitetin hüquq professoru Karlos Uriartedir.**



MUNDO FINANCIERO.com

Azerbaiyán celebra en paz el Día de la República

· Por Carlos Uriarte, Profesor de Derecho de la Universidad Rey Juan Carlos

Lunes 31 de mayo de 2021

A+ a-

En Azerbaiyán, el 28 de mayo se celebra el Día de la República. Su celebración conmemora la declaración de independencia por la primera república parlamentaria en el Oriente - la República Democrática de Azerbaiyán. Fecha señalada para propios y ajenos al país caucásico por sus valores que hoy cumplen 103 apostando por una república democrática, parlamentaria y secular. Siendo siempre fiel a estos valores, en tan solo 23 meses de su legislatura, la República Democrática de Azerbaiyán garantizó la igualdad de derechos políticos y civiles de los ciudadanos, sin diferenciarlos por su origen, género, religión y posición social; estando a la cabeza de la mayoría de los países

Materialda qeyd edilir ki, Azərbaycanda 28 may günü Şəqrdə ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliiyinin elan edildiyi tarixdir. Müəllif vurğulayır ki, cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti demokratiya prinsiplərini əsas götürərək vətəndaşların mənşəyinə, cinsinə, dininə və sosial vəziyyətinə fərq qoymadan onların siyasi hüquq bərabərliyinin təməlini yaradıb.

K.Uriarte oxucuların diqqətinə çatdırır ki, 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa edib. Müstəqilliyin ilk illərində Azərbaycan Respublikası çətin sınaqlara sinə gərməli olub. Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı yürüdülən etnik təmizləmə siyasəti nəticəsində Azərbaycanın ərazisinin 20 faizi işğal edilib, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Müəllif vurğulayır ki, 1992-ci ilin fevralında Xocalıda törədilmiş qırğın kimi kədərli hadisələri unutmaq olmaz. O vaxt Ermənistan silahlı qüvvələri Azərbaycanın bu şəhərinin 600-dən çox dinc sakinini qətlə yetirib.

İspan nəşri daha sonra yazır ki, həmin mürəkkəb dövrdə Azərbaycan xalqının israrlı tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıtdı. Ümummilli Liderin müdrik siyasəti və zəngin təcrübəsi sayəsində qısa müddətdə ölkədə sabitlik bərqərar oldu. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların tamhüquqlu üzvü oldu, Dağlıq Qarabağ münaqişəsi məsələsi həmin təşkiatlar qarşısında qaldırıldı.

Materilda qeyd edilir ki, Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş hərbi təcavüz və terror aktları Azərbaycan xalqının iradəsini qıra bilmədi. 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində Qələbə qazanaraq öz ərazi bütövlüyünü bərpa etdi. Karlos Uriarte sonda yazır ki, Azərbaycanın Ermənistan tərəfindən viran edilmiş regionları yeni eraya - bərpa və inkişaf erasına daxil olur və öz qonşuları ilə dinc yanaşı yaşamağa ümid bəsləyir.

# "Pakistan qardaş Azərbaycanın yanında olmasından qürur duyur"



Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Məktubda deyilir:

"Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu il qeyd edilən Respublika Günü İkinci Qarabağ müharibəsində qazanılan önəmli Qələbədən və işğal altındakı ərazilərin azad edilməsindən sonra Azərbaycan xalqı üçün xüsusilə əlamətdardır. Pakistan qardaş Azərbaycanın yanında olmasından qürur duyur və ölkənizin hər cür təcavüzə qarşı özünümüdafiə hüququnu dəstəkləməkdə davam edəcək.

Zati-aliləri, əminəm ki, mövcud olan yüksək səviyyəli əlaqələrimizin bundan sonra daha da inkişaf etdirilməsi üçün Sizinlə yaxından əməkdaşlıq edəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Azərbaycanın beynəlxalq forumlarda Pakistana verdiyi dəstəyi yüksək qiymətləndirdiyimi bildirmək istəyirəm. Cənab Prezident, Sizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına davamlı inkişaf və firavanlıq diləyirəm. Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin".

# Ermənistan telekanalı: Kərki Azərbaycan kəndidir




Ermənistanın "H1" telekanalı Naxçıvanın Kərki kəndi ilə bağlı reportaj hazırlayıb. "İki sahil" xəbər verir ki, reportajda Kərkinin Azərbaycana məxsus olduğu diqqətə çatdırılıb. Sosial şəbəkələrin erməni seqmentində geniş müzakirələrə səbəb olan reportaj yerli mediada tənqidlərə tuş gəlib. Ermənistan KİV-ləri hakimiyyətə yaxınlığı ilə seçilən "H1" telekanalını Azərbaycana dəstək verməkdə ittiham ediblər.

"Qarşı tərəfin təbliğat alətinə çevrilən "H1"də maraqlı sujet yayımlanıb. Jurnalist Norayr Şoqikyan Tiqranaşeni (Kərki -red.) Azərbaycan kəndi kimi təqdim edir. O, kəndin əvvəllər Kərki adlandığını söyləyir. Beləliklə, Ermənistan hakimiyyəti və onların koordinasiya etdiyi "H1" cəmiyyəti ərazilərimizin bölünməsi və daha bir biabırçı sənədin imzalanması üçün zəmin hazırlayır", - deyə erməni mediasında bu kimi xəbərlər yer alıb. Xatırladaq ki, Kərki kəndi Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun inzibati ərazisinə daxildir. Kənd 1990-cı ildə işğal edilib. Kərki Naxçıvanın ermənilər tərəfindən işğal olunmuş yeganə kəndidir.

# Azərbaycanda uşaqların savadlı və vətənpərvər şəxsiyyət kimi böyümələri üçün hər cür şərait yaradılıb

## YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın yap.org.az-a müsahibəsi

***- Bahar xanım, uşaq hüquqlarının qorunması istiqamətində hansı tədbirlər həyata keçirilir?***



- Bildiyiniz kimi uşaqların sağlamlığının qorunması, keyfiyyətli təhsil alması, onların sağlam ailə mühitində böyüyüb tərbiyə olunması, cəmiyyət üçün layiqli vətəndaş kimi formalaşması dövlət siyasətinin başlıca istiqamətlərindəndir. Azərbaycanda həmişə uşaqlara məhəbbətlə yanaşılır, savadlı və vətənpərvər şəxsiyyət kimi böyümələri üçün hər cür şərait yaradılır.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan hələ 1992-ci ildə çətinliklərlə çarpışdığı bir dönəmdə BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"nı ratifikasiya etmişdir ki, bu Konvensiya dövlətimizin qəbul etdiyi ən əhəmiyyətli beynəlxalq sənədlər siyahısındadır. Bu Konvensiyanı ratifikasiya etməklə, dövlətimiz bütün uşaqların, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların qayğısına qalmaqda qərarlı olduğunu sübut etmişdir.

Ulu öndər Heydər Əliyevin uşaqlara sevgi və qayğı dolu münasibət göstərdiyi, həssas yanaşdığı hər kəsə bəlli idi. Təsadüfi deyil ki, uşaq hüquqları ilə bağlı yaranan məsələləri tənzimləmək və bu hüquqların müdafiəsini təmin etmək məqsədilə Ulu öndər tərəfindən 19 may 1998-ci ildə "Uşaq hüquqları" haqqında Qanun qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlarla bağlı dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir, ailə, cəmiyyət və uşaq münasibətlərinin əsas istiqamətlərini tənzimləyir.

Eyni zamanda Azərbaycan BMT-nin "Uşaq hüquqları haqqında Konvensiya"nın iki əlavə protokoluna, eləcə də "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair", "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasına (Lanzarotte Konvensiyası) və digər Konvensiyalara da qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş sənədlərə əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmış və aparılmaqdadır.

Hazırda "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası və 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərini əsas götürərək, uşaqların bütün sahələrdə imkanlarının daha da genişləndirilməsi, hüquqlarının müdafiəsi üçün müvafiq sənədlər hazırlanır. Mən xüsusilə keçən il bu sahədə həyata keçirilən tədbirlər barədə danışmaq istərdim. Əminliklə deyə bilərik ki, 2020-ci il Dövlət Komitəsi üçün çox məhsuldar bir il kimi qiymətləndirilə bilər. Belə ki, keçən il Dövlət Komitəsi tərəfindən "2018-2030-cu illər üçün Azərbaycan Respublikasının "Milli Uşaq Strategiyası" layihəsi, Milli Fəaliyyət Planı tərtib edilmiş və iyunun 2-də Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə təsdiq edilmişdir. Eyni zamanda tərəfimizdən hazırlanan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun da eyni ildə qüvvəyə mindi. Bundan əlavə "Uşaq Məcəlləsi" layihəsi hazırlanmışdır ki, hazırda sənəd aidiyyəti qurumlarla razılaşdırılma mərhələsindədir.

Bu istiqamətdə həyata keçirilən mühüm layihələrdən biri kimi BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələrinə əsasən, Komitənin təşəbbüsü, Kapital Bankın dəstəyi ilə "Uşaqların internet təhlükəsizliyi" layihəsi çərçivəsində "Valideyn-internet təhlükəsizliyi və nəzarət" proqramını ("Kidsafe") qeyd etmək olar. Proqram təminatı uşaqların internet məkanda müdafiəsinə, valideynlərin uşaqların daxil olduğu elektron səhifələr və sorğular haqqında məlumatlandırılmasına xidmət edir.

Bundan əlavə, Komitənin regionlarda fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi icmada risk qrupuna aid olan ailələrə, qadın və uşaqlara dəstək göstərir, vətəndaşların müraciəti əsasında onları müxtəlif xidmətlərə yönəldirlər.

***- Bu gün Azərbaycanda və dünyanın bir çox ölkəsində 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd edilir. Hazırda bununla bağlı Komitə tərəfindən hansı tədbirlər keçirilir?***

- Bu gün uşaqların öz hüquqlarını bilməsi, ictimai həyatda iştirakçılığının artırılması aktual məsələlərdəndir. Qeyd etmək istərdim ki, uşaqların hüquqlarının müdafiəsi ilə bağlı Dövlət Komitəsinin həyata keçirdiyi tədbirlər yalnız bu günlə məhdudlaşmır. Dövlət Komitəsi il ərzində bu istiqamətində müxtəlif layihələr reallaşdırır. Bunlara Uşaq Forumları və Uşaq Səfirlər Məclisinin adını xüsusi vurğulamaq istərdim. Komitənin layihəsi kimi yaradılan Uşaq Səfirlər Məclisi uşaqların hərtərəfli inkişafı, elmi-mədəni biliklərə yiyələnməsi, liderlik keyfiyyətlərinin formalaşdırılması üçün stimul olmuşdur. Komitə tərəfindən mütəmadi olaraq uşaq səfirlərin Azərbaycanın tanınmış ziyalıları, elm adamları, ictimai həyatın müxtəlif sahələrində uğur qazanmış tanınmış simaları ilə görüşləri təşkil edilir, müxtəlif konfranslarda müzakirələrə qatılaraq sərbəst şəkildə fikirlərini söyləmələrinə şərait yaradılır. Səfir uşaqlar çox fəallıq nümayiş etdirir, hər hansı tədbirin keçirilməsi təşəbbüsü ilə çıxış edir, təşkilatçılıq prosesində yaxından iştirak edirlər ki, bu da özlüyündə uşaqlara şəxsi keyfiyyətlərinin inkişaf etdirilməsində, təcrübə toplamalarında üstünlüklər qazandırır.

Bundan əlavə bu istiqamətdə 2009, 2011, 2014 və 2017-ci illərdə Dövlət Komitəsi ilə UNİCEF-in birgə təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə Ümumrespublika Uşaq Forumları keçirilib. Qeyd etməliyəm ki, cari ilin noyabr ayında Dövlət Komitəsinin UNİCEF-in Azərbaycandakı Nümayəndəliyi və "Regional İnkişaf" İctimai Birliyi (RİİB) ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunun keçirilməsi planlaşdırılır və bu gün, yəni iyunun 1-i Forumun işinə start vermək məqsədilə "Mənim səsim-mənim hüquqlarım" adlı tədbir keçirilir. Dəyirmi masada respublikanın hər rayonunu təmsil edən, il ərzində fəallığı ilə seçilən, dövlət uşaq müəssisələrində yaşayan, habelə qeyri-millətlərdən olan uşaqlar karantin rejiminin qaydalarına uyğun olaraq bir qismi onlayn və bir qismi də əyani formatda iştirak edəcək, müxtəlif mövzularda məruzələri, təqdimatları olacaqdır.

***- Bahar xanım, Ermənistanın təcavüzü nəticəsində hüquqları pozulan vətəndaşlar, xüsusilə uşaqlarla bağlı fikirlərinizi bölüşməyinizi istərdik.***

- İkinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığımız haqlı mübarizədə döyüş meydanında qəhrəman Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən Ermənistan hərbi siyasi rəhbərliyi hərbi təxribatlara əl atdı, dinc Azərbaycan əhalisini hədəfə alaraq onların sıx məskunlaşdığı əraziləri qadağan olunmuş silahlarla atəşə tutdu.

Ermənistan tərəfindən Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Mingəçevir, Xızı, Abşeron, Qəbələ, Kürdəmir və Siyəzən rayonlarına edilən hücumlar zamanı mülki əhaliyə qarşı terror aktları törədilmişdir ki, bu da insan hüquqlarının kobud şəkildə pozulması deməkdir. Bu hərbi təcavüz nəticəsində yaralanan və qətlə yetirilən mülki əhali arasında xüsusilə qadın və uşaqların məqsədyönlü şəkildə hədəfə alınması erməni vandalizmini bir daha dünya ictimaiyyətinə nümayiş etdirdi. Terror hadisələri zamanı 12 uşaq, 27 qadın olmaqla 100 nəfər mülki vətəndaş həlak olmuş, 50 uşaq və 101 qadın olmaqla 416 nəfər yaralanmışdır. Terror nəticəsində bütün bir ailənin məhv edilməsi, eyni zamanda bu hadisələr nəticəsində uşaqların hər iki valideynini itirməsi ermənilər tərəfindən tarixən törədilən qətliamların və insanlığa sığmayan antihumanist əməllərin bu gün də davam etdirilməsinin təzahürüdür. İnsanlar yatarkən gecə vaxtı baş verən mərmi və raket partlayışları, artilleriya atəşləri dinc əhalidə, xüsusilə də dünyanı hələ yeni-yeni dərk etməyə başlayan uşaqlarda psixoloji narahatlıqların yaşanmasına səbəb olmuşdur.

Bütün bu cinayətləri törətməklə yanaşı Ermənistan tərəfi həm də uşaqları Ermənistan ordusuna cəlb etməklə də BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası və "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair" Fakültativ Protokolunun, "Müharibə zamanı mülki əhalinin müdafiəsi" haqqında Cenevrə Konvensiyasının, BMT-nin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyasının, BMT-nin "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyasının müddəalarını kobud şəkildə pozaraq beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadığını bir daha nümayiş etdirmişdir.

Bu proseslərin baş verdiyi bir zamanda Ermənistanın terror cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Azərbaycan hökumətinin beynəlxalq təşkilatlara ünvanlandığı müraciətlər, eyni zamanda Dövlət Komitəsinin qadın və uşaqların müharibədə hədəf seçilməsinin qəbuledilməz olduğunu vurğulayan bir sıra bəyanatları yayıldı, o cümlədən, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə mətbuat konfransları keçirildi Təəssüflər olsun ki, bir sıra dünya dövlətləri və beynəlxalq təşkilatlar susqunluq nümayiş etdirdilər.

Beynəlxalq aləmin erməni terrorizminə göz yumması, uşaq və qadınların qətlinə biganə qalması bəşəriyyətə, insanlığa, demokratiyaya, ilk növbədə insan hüquq və azadlıqlarına qarşı ən böyük hörmətsizlikdir. Bütün bu yaşananlara baxmayaraq, insanların dünyada haqq-ədalətin bərqərar olacağına inamını itirdiyi bir vaxtda Azərbaycan öz gücü hesabına qələbə çaldı və tarixi ədaləti bərpa etdiyini dünyaya nümayiş etdirdi. Biz bu 44 gündə xalqın hər bir nümayəndəsinin "Qarabağ Azərbaycandır!" şüarı altında müqəddəs savaşa qalxan igid Azərbaycan oğullarından ibarət Ordumuza, onun Ali Baş Komandanına dəstək verdiyinə şahid olduq və tariximizin ən parlaq səhifəsini yazdıq.

Bu gün ölkədə gedən nəhəng quruculuq işlərinin davamında ölkəmizdə çiçəklənmə, inkişaf və sülh dolu günlərin yaşanacağı, işğaldan azad olunan hər bir qarış torpağımızda xoşbəxt Azərbaycan ailələrinin yaşayacağı, evlərdən xoşbəxt uşaq sədalarının, gülüşlərinin gələcəyi, günahsız insanların, qadın, uşaq, qoca demədən qanına qəltan edildiyi uçurulmuş şəhərlərimizdə əmin-amanlığın bərqərar olacağı günlər uzaq deyil. Bu gün hər birimizin yalnız bir qayəsi, istəyi var: sülh və əmin-amanlıq mühitində bütün uşaqların, o cümlədən xalqımızın hər bir fərdinin xoşbəxt, sağlam və bərabər imkanlar daxilində yaşaması.

---

## "Azərbaycan dünya əhalisinin vaksinlə ədalətli şəkildə təmin olunmasının tərəfdarıdır"

Azərbaycan koronavirus pandemiyası ilə mübarizədə dünyanın ən öndə gedən ölkələri sırasındadır. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz öz vətəndaşlarının sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirir. Pandemiyanın başladığı vaxtdan etibarən sistemli, qabaqlayıcı tədbirlər görülüb, əhalinin sağlamlığının qorunması ilə yanaşı sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də mühüm proqram və layihələr gerçəkləşdirib. Həmçinin ölkəmiz pandemiya ilə qlobal mübarizədə bir sıra təşəbbüslərlə çıxış edib. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.



Deputat bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusuna həsr edilmiş 74-cü sessiyasında Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi qonaq qismində videoformatda çıxışında ölkəmizin pandemiya ilə mübarizə çərçivəsində gördüyü işlər, eləcə də beynəlxalq müstəvidə təşəbbüsləri diqqətə çatdırılıb. Dövlət başçısının dediyi kimi, pandemiya ilə mübarizənin hazırkı mərhələsində əsas prioritet əhalinin vaksinasiyasıdır. Ölkəmizdə görülmüş müfəssəl tədbirlər nəticəsində karantin rejimi tədricən yumşaldılıb. Cari ilin yanvar ayının ortalarından etibarən peyvənd kampaniyası başlanıb və artıq 99,94 faizi "Sinovak", qalanı isə "Astra-Zeneca" və "Sputnik" olmaqla, 2 milyon doza peyvənd istifadə edilib. Bu rəqəm əhalinin 20 faizini təşkil edir. 18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü şəkildə peyvənd oluna bilərlər. Peyvənd olunanlara COVID-19 pasportları təqdim edilir.

Azərbaycanın pandemiya dövründə də ümumbəşəri dəyərlərə sadiq qalan və humanitar təşəbbüslərlə çıxış edən ölkə olduğunu qeyd edən deputat deyib: "Azərbaycan dünya əhalisinin vaksinlə ədalətli şəkildə təmin olunmasının tərəfdarıdır. Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləyib. Davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınıb, peyvəndlərin yalnız 0,3 faizi azgəlirli ölkələrin payına düşüb. Pandemiyaya qalib gəlmək üçün qlobal həmrəylik strateji əhəmiyyət kəsb edir. Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etməklə yanaşı, Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış edib. Bu sırada Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısı və 2020-ci ilin dekabr ayında 150-dən çox dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası ölkəmizin beynəlxalq təşəbbüslərinin önəmini göstərir".

Sevinc Fətəliyeva diqqətə çatdırıb ki, Azərbaycan pandemiya ilə mübarizədə qlobal çağırışlarla çıxış edən nadir ölkələrdəndir. Hazırda bəşəriyyətin qarşısında duran bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunub. Bu baxımdan, Azərbaycan inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırır.

# Azərbaycan dünya xalqlarını sülhə və ədalətə çağırır



**Müstəqil Azərbaycan özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı münasibətlərini inkişaf etdirir. Amma 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi.**

Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmişdi. BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 4 qətnamədə göstərilirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymadı və öz işğalçı siyasətini davam etdirdi. Azərbaycan müharibə yolu ilə öz torpaqların işğaldan azad etdi və tarixi qələbəsini qazandı. Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. "30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda keçirilən müzakirələri zamanı dövlət başçısı çıxışında bildirib. Cənab Prezident qeyd edib ki, biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatda da əks olunub. Bunun xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlı olduğunu diqqətə çəkən dövlət başçısı bu layihənin həyata keçirilməsi ilə bağlı işin artıq başlanıldığını vurğulayıb: "Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. Bu səbəbdən, bildirmək istəyirəm ki, Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik".

### "MÜNASİBƏTLƏRİN POZULMASINA MƏHZ ERMƏNİSTANDA MÖVCUD OLAN AZƏRBAYCANOFOBİYA, TƏCAVÜZKAR İDEYALAR SƏBƏB OLUB"

Bildiyimiz kimi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il Sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixində şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilib. Cənab İlham Əliyevin dəstəyi ilə fəaliyyətini davam etdirən qeyri-hökumət təşkilatı olaraq ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçıları və nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal tədbirlərə, həmçinin fəaliyyətlərə töhfə verməkdir. Mərkəz Bakıda təşkil olunan Qlobal Bakı Forumuna və dünyanın üzləşdiyi problemlərin müzakirə olunduğu müxtəlif yüksək səviyyəli görüşlərə ev sahibliyi edib və ən yüksək səviyyəli əməkdaşlıq platformasına çevrilmişdir. Cənab Prezidentin sözlərinə görə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dialoq və sülhün, mədəniyyətlərarası və dinlərarası münasibətlərin, əməkdaşlığın, tolerantlığın təşviqi baxımından zəngin təcrübəsi olduğu baxımından Azərbaycanla Ermənistan arasında barışığın təmin olunmasında mühüm rol oynaya bilər. Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə həyata keçirdiyini diqqətə çəkən dövlət başçısı bir milyondan çox insanın öz evlərindən məcburi şəkildə didərgin salındığını bildirib. Lakin barışığın əldə olunması üçün düzgün yanaşmaya ehtiyac var: "Münasibətlərin pozulmasına məhz Ermənistanda mövcud olan Azərbaycanofobiya, təcavüzkar ideyalar səbəb olub. Ermənistan daim dünya ictimaiyyətini aldatmağa və özünü qurban kimi göstərməyə çalışıb".

### "ONLARIN HEÇ BİRİ ÖZLƏRİNƏ SUAL VERMİRDİ Kİ, BƏS NİYƏ ONDA BU ƏRAZİ "QARABAĞ" ADLANIR?"

Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan torpaqlarımıza səfər edərək, erməni vandallarının törətdiyi əməlləri bir daha xalqımıza göstərir və bu ərazilərdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verir. Əlbəttə ki, dağıntılara məruz qalmış ərazilərimizi bütün dünya görmüş olur. Təbii ki, ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, ərazilərimizi viran qoysalar da, xalqımza məxsus din-mədəniyyət abidələrin dağıtmış olsalar da, tarixi həqiqət qələbə çalıb. Azərbaycan öz haqqına qovuşub. Dövlət başçısı çıxışı zamanı ermənilən tərəfindən Azərbaycan ərazilərində törədilmiş vəhşilikləri gəlincə bildirib ki, Azərbaycan xalqı azad edilmiş torpaqlara səfərlər etdiyi zaman və tam yerlə-yeksan olunan yerləri görəndə, siz yəqin ki, təsəvvür edə bilərsiniz, hansı hissləri keçirirlər. "Uzun illər ərzində Ermənistanın liderləri özləri haqqında, öz tarixləri haqqında bir mifologiya quraraq vətəndaşlarının beyinlərini zəhərləyirdi", deyən Cənab Prezident bildirib ki, onlardan bəziləri, bəlkə də bir çoxu bu miflərə həqiqətən də inanmağa başladılar: "Orada baş verənlərə yaxından nəzər saldıqdan sonra gördük ki, indiki Ermənistan cəmiyyətinin faciəsi ondan ibarətdir ki, onların bir çoxu Qarabağın onların olmasına həqiqətən də inanmağa başlamışdır: "Onların heç biri özlərinə sual vermirdi ki, bəs niyə onda bu ərazi "Qarabağ" adlanır? Hansı ki, bu söz erməni dilində heç bir məna kəsb etmir. Əgər bu qədim erməni torpağıdırsa, niyə sovet dövründə Qarabağın, o zamankı Dağlıq Qarabağın əsas şəhərinə, bolşevik-terrorçu Stepan Şaumyanın şərəfinə Stepanakert adı verilmişdi? Əgər ora qədim erməni şəhəri idisə, onlar niyə onun adını dəyişdirmədilər? Onların heç tarixdən xəbərləri yoxdur. Şuşanın Azərbaycan xanı Pənahəli xan tərəfindən 1752-ci ildə əsası qoyulduğunu bilmək üçün təkcə vikipediyaya baxmaq yetərlidir".

Tarixi mənbələrdə göstərildiyi kimi, qədim tarixi olan Şuşa şəhərinin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad da adlandırıblar. XVIII əsrdə Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilib, dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb.1992-ci ildə Şuşa şəhərinin erməni işğalçıları tərəfindən işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilib, 165 nəfər yaralanıb, onlardan 150 nəfəri əlil olub, 552 körpə valideynlərini itirib. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini və s. dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.

### "ERMƏNİSTAN CƏMİYYƏTİNİN FACİƏSİ"

Şuşa adının mənşəyi haqqında müxtəlif fikirlər vardır. Xalq əfsanəsinə görə, bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" (şüşə) adlandırıblar. Bəzi mənbələrdə isə Şuşa şəhərinin adı türk tayfaları və türk sözləri ilə izah olunur. Cənab Prezident bildirib ki, onlar Şuşanın adını dəyişdirib "Şuşi" etmişdilər. Yenə də "Şuşi" sözünün erməni dilində heç bir mənası yoxdur: "Lakin Şuşanın mənası var. Şuşa "şüşə" deməkdir. Şüşə, çünki orada hava şüşə kimi təmizdir. Ağdamın adını dəyişdirib, Akna adlandırmışdılar. Füzulinin adını dəyişdirib Varandi və ya buna bənzər bir şey etmişdilər. Onlar hər şeyi dəyişmişdilər və inanmağa başlamışdılar ki, bu ərazilər həqiqətən də onlara məxsusdur. Bu, faciədir. Ermənistan cəmiyyətinin faciəsi".

Qeyd edək ki, Ermənistanda türk mənşəli toponimlərin dəyişdirilməsi, iki yüz ildən artıq bir zamanı əhatə edir. Ermənilərin tarixi torpaqları olmadığından, özlərini təsdiqləmək məqsədi ilə müxtəlif məqamlara əl atır, öz tarixi keçmişlərini oğurladıqları və hiylə ilə əldə etdikləri sənədlər üzərində qurmağa çalışırdılar. Bəllidir ki, ermənilər indiki Ermənistan ərazisinə köçürülmüş xalqdır. Bu da bir həqiqətdir ki, XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəlli idi. Tarixçi-alimlər ermənlərin Azərbaycan toponimlərinə təcavüzünü dövrlərə bölərək, bu istiqamətdə araşdırmalar aparmışdılar. Həmin araşdırmaların qənaətinə əsasən, türk mənşəli toponimlər erməni adları ilə əvəzlənmişdir. Tarixi mənbələrdə göstərilir ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermişdir. İlk dəyişdirilən ad isə Cəlaloğlu (Stepanovan) rayonundakı Qaraməhəmməd kəndidir. Onun adı dəyişdirilərək, Aleksandrovka qoyulub. Bu ilk addım sonralar daha geniş miqyası əhatə edərək, günümüzə qədər gəlib çıxmışdır. Bu gün ilk addəyişilmə zamanından 200 ildən artıq zaman ötür. "Vaxtlarını boşa sərf etdiklərini anlamaları üçün onlar həqiqətən də öz ideoloji doğmalarını dəyişməlidirlər, müalicə almalıdırlar", deyən Prezident vurğulayıb ki, doğrudan da, onlar psixologiyalarını dəyişməli və özlərinin yaratdıqları və inanmağa başladıqları mifik ideoloji doqmalara son qoymalıdırlar. Bu xüsusda, bir müddət keçəndən sonra düşünürəm ki, onlar bunu başa düşəcəklər və ümid edirəm ki, Nizami Mərkəzi öz səyləri ilə onlara bu işdə kömək göstərə bilər".

### "AZƏRBAYCANDA "DAĞLIQ QARABAĞ" DEYİLƏN BİR MƏFHUM-QURUM YOXDUR"

Rumıniyanın Baş naziri Romanın sualını cavablandıran dövlət başçısı bildirib ki, münaqişə sona çatmışdır. Dağlıq Qarabağ münaqişəsi mövcud deyil: "Azərbaycanda "Dağlıq Qarabağ" deyilən bir məfhum-qurum yoxdur. Hazırda biz bir-birimizlə əməkdaşlığa əngəl yarada biləcək bir problem görmürük. Əslində, biz artıq əməkdaşlıq edirik. Azərbaycan və Ermənistan Baş nazirlərinin müavinləri hazırda Zəngəzur dəhlizi ilə bağlı konkret məsələlər üzərində birgə iş aparırlar. Buna görə də, prinsipcə, düşünürəm ki, erməni siyasətçilərin Nizami Mərkəzində təşkil olunan tədbir və müzakirələrdə iştirakları mümkündür. Lakin bir məsələ də aydındır ki, Nizami Mərkəzi, bu nadir beynəlxalq institut eyni dəyərləri paylaşan insanlar sayəsinə yaranıb. Nizami Mərkəzindəki böyük şəxsiyyətlərin sayı artıq insani keyfiyyətlər və baxış nöqteyi-nəzərindən meyarları müəyyən edir. Hamınızı əməkdaşlıq, təhlükəsizlik, yaxşı qonşuluq siyasəti və digər nəcib fikirlər birləşdirir". Dövlət başçısı "Əgər bəzi erməni siyasətçilərin Mərkəzə qatılmalarından söz gedirsə, Mən etiraz etmirəm", deyə bildirib: "Lakin həmin şəxs Nizami Mərkəzini qarşıdurma, iddia və iddialar məkanına çevirməmək üçün bu meyarlara cavab verməlidir".

*Nəzakət ƏLƏDDİNQIZI*

## Peyvənd olunanların sayı açıqlanıb




Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 59 499 vaksin vurulub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 51 940, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 7559 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 2 312 715, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 1 404 898, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 907 817 təşkil edir.

# Azərbaycan pandemiyadan uğurla çıxır, bəs Ermənistan?

**Rəsmi statistik rəqəmlər qonşu ölkədə yeni və daha dəhşətli yoluxmaların yaşanacağı siqnallarını verməkdədir**

**Dünyanın bir sıra ölkələrində COVİD-19-a yoluxmaların sayının azalması sərt karantin rejimlərinin yumşaldılması ilə müşahidə olunmaqdadır. Bu yolla Azərbaycan da irəliləməkdədir. May ayının 31-dən etibarən sərt karantin rejimində tətbiq edilən bir sıra məhdudiyyətlər aradan qaldırılıb, yumşaldılma qərarları verilib.**



Belə ki, yanvar ayından tətbiq edilən ölçülər effektivliyi təmin etdi, eləcə də vətəndaşların çox hissəsinin vaksinasiya olunması da müsbət dəyişikliklərə səbəb oldu.

Lakin elə ölkələr də var ki, onlarda tamamilə fərqli mənzərədir. Misal üçün, Ermənistan: bu ölkədə iyunun 1-dən yumşaldılma qərarları verilsə də, bir sıra problemlər həll olunmamış qalıb. Belə ki, ilk növbədə illik vaksinasiya proqramının müddəti iflasa uğrayıb. Əbəs deyil ki, Ermənistan MDB ölkələri sırasında peyvəndlənməyə görə sonuncu yerlərdən birini tutur.

**Azərbaycanda cari ilin yanvar ayından may ayının sonlarına qədər təqribi hesabla 2,253 milyon antikovid vaksin dozları istifadə olunub**

Ermənistandan fərqli olaraq, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dəfələrlə Azərbaycanın COVİD-19 pandemiyası ilə mübarizəsini digər ölkələrə örnək göstərib, qazanılan nailiyyətlər barədə qeydlər edib. Məsələn, ölkəmiz regionda irimiqyaslı peyvəndlənmə prosesinə ilk başlayan dövlətlər sırasında yer alır. Statistikalar da bunu sübut edir. Cari ilin yanvar ayından may ayının sonlarına qədər təqribi hesabla 2,253 milyon antikovid vaksin dozları istifadə olunub. Əsasən, ikili dozlar vasitəsi ilə immunlaşdırma prosesində 900 min insan iştirak edib, 1,353 milyon vətəndaşımız isə birinci dozadan keçib. Proqram xarakterli immunlaşdırma ölkənin 20% əhalisini əhatə etməklə yanaşı, proses tam sürətlə davam edir, göstəricilər isə postsovet məkanında liderlik səviyyəsinə yüksəlib.

Qeyd olunanlarla yanaşı, ölkəmizdə tətbiq edilən karantin qaydaları, eyni zamanda, aparılan effektli müayinə və profilaktik tədbirlər ölüm sayının azalmasına səbəb olub. Təsadüfi deyil ki, pasientlərin azalması səbəbi ilə son vaxtlar bir neçə pandemiya xəstəxanalarının da fəaliyyəti dayandırılıb. Nəticədə sərt karantin rejimində ardıcıl yumşaldılma prosesinə start verilib və mərhələli şəkildə metropolitenin işi bərpa edilib, küçədə qoruyucu maskalardan istifadə qərarına son qoyulub, rayonlararası sərnişindaşıma vasitələri açılıb, yaxın günlərdə isə məscidlərin, iri ticarət və əyləncə obyektlərinin, idman qurğularının, çimərlik mövsümünün, hovuzların açılışı gözlənilir.

Ümumilikdə yüksək vaksinasiya səviyyəsinə görə eyni proseslər bir çox inkişaf etmiş ölkələrdə davam edir, amma mövcud tendensiyanı özü-özünü aldadan Ermənistanda görmək mümkün deyil.

**Erməni cəmiyyətində yeni pandemiya partlayışının ola biləcəyi qorxusu qalmaqdadır**

Məsələyə daha dəqiq yanaşma edək. Belə ki, Ermənistanda da sərt qərarların aradan qaldırılması bəyan edilsə də, onların sayının məhdud olduğunu deyə bilərik. Misal üçün, açıq havada maska taxmaq qadağası götürülüb, həmçinin, tam vaksinasiya kursu keçənlər qapalı məkanlarda da maska taxmaya bilərlər. Fəqət, Ermənistanda bundan başqa heç bir yumşaldılma qərarlarını görmək mümkün deyil. Onda belə nəticə hasil etmək mümkündür ki, bu qərarlar yalnız görüntü xarakteri daşıyır. Əslində, erməni cəmiyyətində yeni pandemiya partlayışının ola biləcəyi qorxusu qalmaqdadır. Əlbəttə ki, bunun da bir sıra səbəbləri var.

Ötən il göstərdi ki, pandemiya böhranı Ermənistanı cənginə alanda bu ölkənin səhiyyə sistemi sıfır həddindədir. Effektsiz tibbi vasitələr və həkim qıtlığı, sanitar nəzarət mexanizminin olmaması, adi dərman preparatlarının çatışmazlığı ilə yanaşı, büdcənin yetərli olmaması Ermənistanda modul tipli xəstəxanaların da açılmasının qarşısını aldı. Üstəlik, adi xəstələri qəbul etmək qabiliyyətində olan kalinikaların qıtlığı, süni nəfəs aparatlarının çatışmazlığı, digər reanimasiya vasitələrinin az sayda olması nəinki infeksiyalaşmış insanların sayını artırdı, üstəlik ölüm halları ən yüksək dərəcəyə qədər artdı. Əbəs deyil ki, 2020-ci ilin mayından etibarən Ermənistan uzun müddət koronavirusdan ölüm hallarına görə postsovet məkanında ikinci yeri tuturdu.

**Aprelin ortalarından başlayaraq mayın sonuna qədər Ermənistanda təxminən 26 mindən artıq vətəndaş peyvənd edilib - bu isə əhalinin 0,8%-i deməkdir**

Cari ildə Ermənistandakı vəziyyət çox cüzi şəkildə yaxşılığa doğru dəyişdi və may ayının ortalarında ölkə koronavirus səbəbindən yaranmış ölüm hallarına görə dünya üzrə 31-ci yerdə qərarlaşdı. Bir il əvvəl isə ÜST tərəfindən verilmiş müvafiq statistik cədvəldə Ermənistan 71-ci yerdə idi. Ölüm cədvəlindəki belə bir ağır irəliləmə deməyə əsas verir ki, üçüncü dünya ölkələrinin bir çoxu yüksək ölüm hallarını azalda bilsələr də, Ermənistanda həmin istiqamətdəki cəhdlər boşa çıxdı, ölüm statistikasının azalması demək olar ki, ağırlığını qoruyub-saxladı. Lakin ən pisi bu oldu ki, Ermənistan MDB məkanında vaksinasiya prosesinə başlayan ən sonuncu ölkə kimi qeydiyyata düşdü, özü də kifayət qədər məhdudiyyətlərlə. Çünki preparatlar çatışmazlığı qalmaqda idi və bu gün də eyni hal davam edir. İrəvanda kommersiya kanalları vasitəsi ilə lazım olan qədər münbit, keyfiyyətli peyvəndlər əldə edilmədi, onun yerinə isə COVAX beynəlxalq təşəbbüs xətti ilə dünyanın ən kasıb ölkələri üçün nəzərdə tutulmuş AstraZeneca vaksinləri gətirildi. Bu gün Ermənistan əvvəlki kimi vaksinasiya proqramını tam qaydada maliyyələşdirmək üçün imkanlara malik deyil. Ölkə yalnız Rusiya və Çinin donor dəstəyinə arxalanır. Nəticədə aprelin ortalarından başlayaraq mayın sonuna qədər Ermənistanda təxminən 26 mindən artıq vətəndaş peyvənd edilib. Bu isə əhalinin 0,8%-i deməkdir. Ümumilikdə bu ölkəyə 153 min doz preparat çatdırılıb və bu da 80 min insan edir. Belə templərlə ölkənin səhiyyə nazirliyinin ilin sonuna qədər 700 min insanın vaksinasiya olunacağı ilə bağlı verdiyi vədinin də yerinə yetirilməyəcəyini deyə bilərik.

Bu gün Ermənistan vətəndaşlarının vaksinasiyası göstəricilərinə görə regionun ən pis göstəricilərinə malikdir. Mövcud sferada uğurun qazanılmamasına baxmayaraq, yumşaldılma qərarlarının verilməsi isə yeni və təhlükəli pandemiyanın partlayışı siqnallarını verməkdədir. O cümlədən, Ermənistan pandemiya planına uyğun olaraq turizmin, sərnişin daşıyıcılarının, aviarabitənin, sərhədyanı ticarətin istifadəyə verilməsi prosesində də ciddi çətinliklərlə üz-üzə qalmaq təhlükəsini qoruyub-saxlamaqdadır.

*Rövşən RƏSULOV*

ANALITIKA AKTUAL



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Ermənistan üçün qanlı "bazarlıq": Putinin "ovu" kimdir?

**Ermənistan nəyəsə "hamilədir", bu dəqiqdir. Yox, artıq hansısa küçə "inqilabı", yaxud yeni siyasi aktyorların şouları gözlənilən deyil. Bunlar arxada qaldı. Amma ermənilər Nikol Paşinyanın siyasi şoularına, deyəsən, min dəfə şükür oxuyacaqlar. Çünki bu dəfə daha betəri olacaq kimi görünür. İşğalçı ölkədə qan canağa yığılıb və hər an İrəvan küçələri erməni qanı ilə sulanmağa çox yaxın görünür. Robert Koçaryan İrəvanı al qana boyamasa, əl çəkənə oxşamır. "Öz qanında çiməsən" deyimi bu yerdə lap əməllicə yerinə düşür...**

Bu gün cavabı çətin sual budur: Ermənistanı bölüşdürmək uğrunda amansız oyunda kim kimin tərəfindədir, kim kimin "əlinə oynayır"? Yekəqulaq paşikin ipi kimin əlindədir, Vladimir Vladimiroviçin, Corc Sorosun, Co Baydenin, yoxsa bir başqasının?

Son bir neçə gün ərzində cəbhə xəttində yaşanan təxribat şouları Ermənistanın təkcə Nikol Paşinyan tərəfindən idarə olunmadığını açıqca ortaya qoyub. Sanki suyu qurumuş, dağılıb pərən-pərən olmuş erməni ordusunda hərbi elita hazırkı hakimiyyəti "odun içinə atıb" idarəolunmaz xaos yaratmaq üçün ağla gəlməyən ən axmaq və təhlükəli ssenariləri işə salmağa çalışır. Sözsüz ki, hərbçilər bu cür əmrləri siyasi generallardan alırlar. Ya Qərb olsun, ya da Moskva.

Bölgədə elə bir situasiya yaranıb ki, indi kimin əlinin kimin cibində olmasını aydınlaşdırmaq müşkül məsələdir. Əslində, nədənsə erməni zabitlərinin Moskvapərəst olması daha çox inandırıcıdır. Çünki daima N.Paşinyanın ən qatı əleyhdarı olan, hazırkı hakmiyyət sahibindən amansız qisas almaq üçün alışıb yanan Robert Koçaryan, ən güclü dəstəyi məhz ordudakı zabitlərdən alıb.

Yəqin xatırlayarsınız, keçmiş Baş qərargah rəisi ilə N.Paşinyan arasındakı rəzalət dolu qarşıdurmada erməni generalları bir köynək Moskvaya yaxın mövqedə dururdular. Amma ortada gün kimi aydın olan bir fakt da var: hazırkı vəziyyətdə Azərbaycanla sərhəddə bu cür təxribatlar törətmək, 10 noyabr razılaşmasını sual altına salmaq qəti olaraq Moskvanın maraqlarına xidmət etmir. Çünki bu razılaşma məhz Kreml sahibinin müəllifliyi ilə reallaşmışdı. V.Putinin qoyduğu xətti bu gün məhz Ermənistan tərəfi tapdalamağa başlayıb. Amma kim Rusiya rəhbərinin qoyduğu cizgiləri aşırmaya çalışır? Axı N.Paşinyan müharibənin ilk günündən sona qədər və ondan sonrakı dövrdə də birbaşa Vladimir Vladimiroviçin "əlinə oynayıb!". Açıq görünür ki, bu işin içində başqa güclərin barmağı gəzir. Sanki seçkilər ərəfəsində Ermənistanda idarəolunmaz xaos üçün amansız plan reallaşdırılır. Lap 1999-cu ilin parlament qırğınının qoxusu gəlir...

Bu gün həm də Ermənistanı bölüşdürmək uğrunda amansız savaşın getdiyi göz önündədir. Heç bir iqtisadiyyatı, təbii sərvətləri olmayan, dərə-təpədən ibarət bu ac-yalavac ölkə, tarix boyu Qafqazda dünya güclərinin "hürən iti" olmağına görə "dəyər qazanıb". Daima Rusiyanın bölgədəki itaətkar köpəyi olan Ermənistan, zaman-zaman Fransa, İngiltərə və başqalarına da öz "xidmətlərini" təklif edib. Erməni üçün müştərinin kimliyi önəmli deyil, önəmli olan öz alçaqlığı ilə özünün mövcudluğunu saxlamaq istəyidir.

Xüsusilə bölgədə daima Türkiyəyə qarşı amansız alçaqlığı ilə fərqlənən ermənilər, Fransa, İngiltərə və Almaniya kimi dünya gücləri üçün də əla "yemdir". İstənilən zaman Türkiyə əleyhinə ən alçaq missiyanı bu satqın və nankor ölkəyə həvalə etmək, zaman-zaman Türkiyə və Azərbaycana qarşı hücum kartı kimi ermənilərdən yararlanmaq supergüclər üçün qaçırılmaz fürsətdir. Və... və bu məsələdə artıq Moskva ilə qərbdəkilər arasında savaş başlayıb. Çünki Rusiya heç zaman tarix boyu itaətkar əlaltısı olan, Qafqazda daima öz maraqları üçün it yerinə istifadə etdiyi alçaq erməniləri kiməsə peşkəş edə bilməz. Bu, sadəcə, mümkünsüzdür. V.Putin istəsə günü bu gün Gümrüdəki hərbi hissədən 3-5 əsgəri göndərib, Moskvaya qarşı baş qaldıran istənilən asi erməni siyasətçisini "Kalaşnikov"un qundağına bağlayıb, İrəvan küçələrində sürükləyər. Burası belədir. Amma nədənsə Moskva baş verənləri hələ də səbrlə izləyir. Görünür, Rusiyanın bu məsələdə geniş planı var və öz "ovunun" tələyə düşməsini gözləyir. Amma V.Putinin həmin "ovu" kimdir, Paşinyan, yoxsa daima özünü Moskvanın adamı kimi təqdim edən, amma Moskvadan istədiyi dəstəyi ala bilməyən R.Koçaryan? Hər şeyə az qalıb. Amma görünən odur ki, Ermənistan bu seçkidən qansız ötüşməyəcək. "Oyunçu aparsın" paşikcan...

# Medianın İnkişafı Agentliyi qəzetlər üçün dəstək layihəsi elan edib



**Medianın İnkişafı Agentliyi çap mediasına dəstək layihəsi elan edib. Agentlikdən SİA-ya verilən məlumata görə, müsabiqə ictimai-siyasi qəzetlər arasında keçirilir.**

Müsabiqədə iştirak üçün ictimai-siyasi qəzetlər:

- mətbu nəşrlərin reyestrinə daxil edilmiş olmalıdır;
- müsabiqə elan olunan günədək son 1 (bir) il ərzində müntəzəm nəşr olunmalı, dövriliyi həftədə bir dəfədən, birdəfəlik tirajı 1500 nüsxədən və yayımı (abunə və satışı) 1000 nüsxədən az olmamalıdır;
- yenidən təşkil, müflis olma, ləğv edilmə prosesində olmamalıdır;
- təsisçisi xarici dövlətlərin hüquqi və fiziki şəxsləri olmamalıdır;
- təsisçisi dövlət orqanları, bələdiyyələr, dini qurumlar və dini icmalar olmamalıdır.
- redaksiyasının yaradıcı heyəti ən azı beş nəfərdən ibarət olmalıdır.

Müsabiqədə iştirak etmək üçün müraciət edən qəzet redaksiyaları müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində hər ay üzrə 2 (iki) nömrə olmaqla, ümumilikdə 6 (altı) nömrələrini Qaydalara uyğun olaraq Agentliyə təqdim edirlər.

Tələb olunan digər sənədlər:

- qəzetin baş redaktorunun ərizəsi;
- qəzetin mətbu nəşrlərin reyestrinə daxil edilməsini təsdiq edən müvafiq sənədin surəti;
- vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;
- qəzet redaksiyasının nizamnaməsinin surəti;
- müsabiqə elan olunan günədək son 1 (bir) il ərzində qəzetin müntəzəm nəşr olunmasını təsdiq edən arayış;
- mətbəə tərəfindən verilən və qəzetin dövriliyini təsdiq edən arayış;
- qəzetin birdəfəlik tirajını təsdiq edən elektron qaimələr (mətbəə qaimələri);
- qəzetin tiraj bölgüsünə dair məlumatı əks etdirən təsdiqlənmiş sənəd;
- qəzetin abunə və satışına dair yayımçı tərəfindən təsdiq edilən arayışlar və elektron qaimələr;
- qəzetin bank rekvizitlərini əks etdirən sənəd;
- qəzetin və onun eyniadlı veb-saytının minimum işçi sayı tələbinə cavab verdiyini təsdiq edən əmək müqaviləsi bildirişləri (veb-saytın işçilərinə dair əmək müqaviləsi bildirişləri təqdim edilə bilmədikdə həmin işçilərin veb-saytda müvafiq vəzifələri icra etdiyinə dair təşkilati-sərəncamverici sənədlərin surəti);
- qəzetin müvafiq qəzet nömrələri (təqdim olunan hər bir nömrə 4 nüsxədə).

Müsabiqənin elanından əvvəlki yarımildə maliyyə yardımı göstərilmiş qəzet redaksiyalarından tələb olunan sənədlər:

- qəzetin baş redaktorunun ərizəsi;
- qəzetin və onun eyniadlı veb-saytının minimum işçi sayı tələbinə cavab verdiyini təsdiq edən əmək müqaviləsi bildirişləri (veb-saytın işçilərinə dair əmək müqaviləsi bildirişləri təqdim edilə bilmədikdə həmin işçilərin veb-saytda müvafiq vəzifələri icra etdiyinə dair təşkilati-sərəncamverici sənədlərin surəti);
- qəzetin müvafiq qəzet nömrələri (təqdim olunan hər bir nömrə 4 nüsxədə).

Müsabiqəyə müraciət nəzərdə tutulmuş sənədlərin kağız daşıyıcıda Agentliyə təqdim olunması və ya “Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı”na daxil edilməsi yolu ilə edilir.

Qəzet nömrələrinin qiymətləndirilməsi Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 müstəqil ekspert tərəfindən həyata keçirilir.

Maliyyə yardımının göstərilməsi:

- Həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5000 (beş min) manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15000 (on beş) min manat məbləğində maliyyə yardımı göstərilir;
- Müsabiqədə qalib elan olunan hər bir qəzet redaksiyasının eyniadlı veb-saytına 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir;
- Qalib elan olunan qəzetin baş redaktoru müsabiqəyə müraciət ərizəsində qəzetinin eyniadlı veb-saytını əsaslı yeniləmək niyyətini ifadə etmişdirsə, maliyyə yardımı göstərilən 6 (altı) aylıq dövrün birinci ayında ona həmin veb-saytın əsaslı yenilənməsi məqsədilə 5000 (beş min) manat məbləğində vəsait ayrılır;
- Müsabiqədə qalib elan olunan qəzet redaksiyaları Agentlik tərəfindən maliyyələşdirilən hər nömrədə (həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlər həftədə bir dəfə, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlər isə həftədə beş dəfə olmaqla) Qaydalarda göstərilən sahələrdən hər hansı biri üzrə ən azı 500 (beş yüz) sözdən ibarət məqalənin dərc olunmasını təmin edirlər.

Maliyyə yardımı göstərilən dövr ərzində qəzetin eyniadlı veb-saytının işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə veb-saytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir.

Maliyyə yardımı göstərilən ay üzrə qəzetin yalnız fiziki şəxslərdən ibarət hər əlavə 500 (beş yüz) abunəsi üçün aylıq 200 (iki yüz) manat, hər əlavə 1000 (bir min) abunəsi üçün isə aylıq 400 (dörd yüz) manat məbləğində bonusun verilməsi nəzərdə tutulur.

Müraciətlərin qəbulu iyunun 1-dən 11-dək həyata keçirilir.

# Ermənistanın oyunbazlıqları və ya marslılar harada baza quracaq?

*Moskva İrəvana yalnız barmaq silkələmir, həm də qulaqburması verir*

**Məlum olduğu kimi, ATƏT-in Minsk qrupunun həmsədrləri bugünlərdə bəyanatla çıxış ediblər və həmin bəyanat ənənəvi olaraq İrəvanda dəstəkləndi, əlbəttə ki, özünə sərf edən variantda. Belə ki, Ermənistanın baş naziri vəzifəsini müvəqqəti icra edən Nikol Paşinyan artıq bir neçə dəfə bəyan edib ki, Azərbaycanla Ermənistan sərhədinə ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin - Fransanın və ABŞ-ın beynəlxalq müşahidəçiləri daxil olsunlar və bu, situasiyanın deskalasiyası üçün İrəvan üçün qəbulediləndir.**

Lakin o da məlumdur ki, Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində ATƏT-in Minsk qrupunun göyərtədən kənarda qalan iki cinahı - Paris və Vaşinqton artıq bir neçə aydır ki, bu qurumu dirçəltməyə cəhdlər göstərirlər, amma göründüyü kimi onların bu cəhdləri uğursuzdur. Yeganə olaraq isə yalnız Ermənistan rəhbərliyi tərəfindən anlayışını tapmaqdadır.




## Denis Denisov: “Ermənistan rəhbərliyi ABŞ və Fransanın hesabına Rusiyanın regiondakı təsirini azaltmaq istəyir”

SİA-nın məlumatına görə, Rusiyanın Sülhməramlılıq təşəbbüsü və konfliktologiya institunun direktoru Denis Denisov rusdilli caliber informasiya analitik mərkəzinə verdiyi açıqlamasında qeyd edib ki, ermənilərin və Nikol Paşinyanın istəkləri magistral olaraq müxtəlif şeylərdir: “Axı biz yaxşı bilirik ki, Nikol Paşinyan kimdir, onun hansı işlənmiş əlaqələri var və o, ilk növbədə nəyə orientasiya edir. Və bu da tez-tez erməni xalqının istəkləri ilə üst-üstə düşmür”.

“Daha çox aydın görünən bu faktdır ki, Nikol Paşinyan üçün Rusiya Federasiyasının təsirini azaltmaq sərf edir. Regiondakı bu təsirləri isə beynəlxalq ortaqların hesabına, o cümlədən ATƏT vasitəsi azaltmaq olar. Bəli, ATƏT-in iştirakı o halda məntiqli olardı ki, ona ehtiyac duyulsun. Ancaq praktiki nöqteyi-nəzərdən yanaşdıqda belə bir ehtiyac yoxdur”, Denis Desinov bildirib.

## Rusiyalı politoloq: “Haqqında bəhs etdiyimiz ATƏT-in Minsk qrupunun son bəyanatı faktiki olaraq “heç nədir”

Bundan əlavə, rusiyalı konfliktoloq vurğulayıb ki, ATƏT-in sülhməramlılıq formatı yoxdur: “Bəli, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri Rusiyadır. Lakin digər həmsədrlər - ABŞ və Fransa heç də tam olaraq optimal ortaqlar deyillər. Haqqında bəhs etdiyimiz ATƏT-in Minsk qrupunun son bəyanatı faktiki olaraq “heç nədir”. Amma onu istədiyin kimi yönləndirə bilərsən. Monitorinq missiyası təşəbbüsü, həm də beynəlxalq sülhməramlılar da daxil olmaqla realizə olunmayan bir məsələdir. Hazırkı anda fəaliyyətdə olan Rusiya Federasiyasının missiyasına və onun kompleksli tənzimləmə resurslarına arxalanmaq olar”.

Denis Denisovun sözlərinə görə, son həftələrdə sərhəddə baş verən insidentlər əlbəttə ki, diqqət tələb edir, amma onlar tənzimlənməyə yenidən baxılması dərəcəsində kritik deyillər.

## Vladislav Şurıqin: “Erməni fobiyalarını ciddi qəbul etmək doğru deyil və bu, məntiqsiz bir işdir, ona görə də onlara politoloq və analitiklərdən daha çox həkim dəstəyi lazımdır”

Bu arada, onu da xatırlatmaq olar ki, Ermənistan yalnız ATƏT-in Minsk qrupunun iki həmsədr ölkəsi, davamlı olaraq, hətta açıq-aşkar Ermənistanın maraqlarından çıxış edən ABŞ və Fransa ilə yanaşı, üzvü olduğu KTMT-ni də dövriyyəyə qatmağa cəhdlər göstərir. Ancaq fakt budur ki, erməni tərəfinin bu cəhdləri də nəticəsiz qalır. Hətta Ermənistanın hakimiyyət dairələri ilə yanaşı, siyasi ekspertləri üzv olduqları bu quruma qarşı həqarətli fikirlər səsləndirirlər. Əbəs deyil ki, artıq İrəvanın küçələrindəki zibil urnalarının üzərinə KTMT-nin loqoları vurulmaqdadır. Əlbəttə ki, bu kimi məsələlər heç də Ermənistana yaxşı siyasi nəticələr də vəd etmir. Məhz bununla bağlı çıxış edən Rusiya politoloqları da maraqlı fikirləri ilə yadda qalırlar.

Daha bir məqam isə Ermənistanın artıq istefa vermiş xarici işlər naziri Ara Ayvazyanın KTMT-ni sərt qaydada ittiham etməsinin ardınca Rusiyanın xarici işlər nazirinin müavini Andrey Rudenkonun cavabı ilə bağlıdır. O, öz növbəsində bəyan etdi ki, KTMT bütün tərəflər, o cümlədən Azərbaycan üçün də açıq olmalıdır və onun həmin bəyanatı Ermənistanda dəhşətli isterika ilə qarşılandı.

Rusiyanın hərbi eksperti və publisisti, İzborsk klubunun daimi üzvü Vladislav Şurıqin qeyd edib ki, erməni fobiyalarını ciddi qəbul etmək doğru deyil və bu məntiqsiz bir işdir, ona görə də onlara politoloq və analitiklərdən daha çox həkim dəstəyi lazımdır.

## Rusiyalı hərbi ekspert: “Ermənistanın ərazisində Çin bazasının qurulması tələbi şizofreniya qoxusu verməkdədir, nəyə görə də marslılar çağırılmasın və orada marslıların bazaları qurulmasın?”

“Sözsüz ki, KTMT bilavasitə açıq qurumdur və keçmiş SSR-idən olan istənilən ölkə bu quruma üzv ola bilər. Bu halda isə Ermənistanın mövqeyi müəyyənedici olmayacaq. Əsas olan KTMT-yə üzv olacaq ölkələrin maraqlarının qorunmasıdır”, deyə Şurıqin bildirib.

Rusiyalı hərbi ekspert Ermənistandakı bir sıra qüvvələrin Çin hərbi bazasının qurulması ideyalarına özünəməxsus tərzdə cavab verib. “Ermənistanın ərazisində Çin bazasının qurulması tələbi şizofreniya qoxusu verməkdədir, nəyə görə də marslılar çağırılmasın və orada marslıların bazaları qurulmasın?”, deyə ironik münasibət sərgiləyən Şurıqin əlavə edib: “Əslində sual sadədir - Çinə Ermənistan sərhədlərində nə lazımdır? Rusiyaya nə lazımdırsa, bu aydındır. Yeri gəlmişkən, Rusiyanın mövcudluğu Ermənistanın sağ-salamat qalmasına səbəb oldu. Əgər erməni şərhçiləri Çinlə Rusiyanı qarşıdurmaya cəlb etmək istəyirlərsə bu olmayacaq. Və əgər Moskvanın qarşısında “Çin, yoxsa Ermənistan?” seçimi qalarsa, mən kifayət qədər əminəm ki, seçim Ermənistanın xeyrinə olmayacaq”, Vladislav Şurıqin vurğulayıb.

**Rövşən RƏSULOV**

# Böyük Qayıdışa doğru: Ağdam dünyada örnək şəhər olacaq

*Prezident İlham Əliyev: "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır"*

**Prezident İlham Əliyev işğaldan azad olunmuş Ağdam şəhərinə növbəti tarixi səfəri əlamətdar bir günə - 28 may Respublika Gününə təsadüf edir. Dövlət başçımızın tarixi bir gündə Ağdama səfər etməsi ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsidir. Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edən Prezident İlham Əliyev mayın 28-də Respublika Günündə şəhərin Baş planının təqdim olunmasının çox böyük rəmzi mənasının olduğunu bildirib: "Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək".**





Dövlətimizin başçısı deyib: "Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək".

Prezident qeyd edib ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. "Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq".

## Sözün təsdiqi

Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev bütün sahələrdə, son 18 ildə özünü dəfələrlə isbatlayıb. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməmiz yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Ən əsası isə dövlət başçısının hər atdığı addımı el ağsaqqalları, rayonun ictimai fəalları, tanınmış şəxsləri ilə birgə məsləhət edir. Bu, həm ölkəmizin milli adət-ənənələrinə Prezidentin sadiqliyinin, həm də demokratik dəyərlərə verdiyi qiymətin təzahürüdür. Bütün komponentləri birləşdirəndə əmin oluram ki, şübhəsiz cənab İlham Əliyev ən böyük Azərbaycanlıdır!

"Bilirsiniz ki, müharibə dövründə birinci Cəbrayıl rayonu işğaldan azad olunmuşdur. Mən bunu xalqa çatdırandan sonra fikirləşdim, yəqin ki, mənim həyatımda ən xoşbəxt günlərimdən biridir. Çünki birinci rayonu tam azad etmək, işğalçılardan tam təmizləmək doğrudan böyük tarixi hadisə idi və xalqımıza, ordumuza əlavə ruh verdi, inam verdi". Bu barədə Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə İkinci Qarabağ müharibəsi zamanı keçirdiyi hisslərdən danışarkən deyib.

"Ondan sonra Füzuli, ondan sonra Hadrut, ondan sonra Murovdağ, Suqovuşan, Zəngilan, Qubadlı. Hər dəfə öz-özümə deyirdim ki, ən xoşbəxt günlərimi yaşayıram. 10 noyabr - Ermənistanın kapitulyasiya aktı. Özü də nəinki Azərbaycan ictimaiyyəti, bütün dünya bilir ki, o, hansı formada imzalandı. Bu günə qədər mən bilmirəm, Paşinyan onu hansı tində imzalayıb. O da müharibənin, zəfərin kulminasiyası idi, o, əsl kapitulyasiya aktı idi. İndi hər kəs bunu belə qəbul edir" - deyə dövlətimizin başçısı vurğulayıb.

Yanvarın 14-də Şuşada birinci dəfə olarkən ən xoşbəxt günlərini yaşadığını qeyd edən Prezident İlham Əliyev deyib: "Bu gün də eyni sözləri deyirəm. Əminəm ki, bizim xalqımızın həyatında bundan sonra belə xoşbəxt günlər çox olacaq. Xalqımız xoşbəxt olsun", - deyən dövlət başçısı bildirib ki, tezliklə doğma Ağdamı bərpa edək, vətəndaşları qaytaraq və bu gözəl diyarımız olan Qarabağ torpağında əbədi yaşayaq.



## "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq"

Aəzərbaycan Prezidenti bildirib ki, İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu, şanlı Qələbə tarixdə əbədi qalacaq: "Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq".

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan isə məğlub edilmiş dövlətdir və bizim işğal altında olan torpaqlarda törədilmiş vəhşilik o erməni lobbi təşkilatlarının öz xalqı haqqında yaratdıqları mifologiyaya da son qoydu: "Çünki bu dağıntıları törədən vəhşidir. Bunun başqa adı yoxdur. Təkcə bura deyil, azad edilmiş bütün torpaqlarda mənzərə eynidir. Mən maşınla yüz kilometrlərlə torpaqları gəzərkən gördüm ki, sağda-solda hər şey dağıdılıb, talan edilib. Sanki bu torpaqlardan vəhşi qəbilə keçib. Mən bunu demişəm, bir daha burada Respublika Günündə Ağdam şəhərində demək istəyirəm, bizim müharibəmiz təkcə faşist Ermənistan dövlətinə qarşı deyildi, bizim müharibəmiz faşizm əleyhinə müharibədir. Bizim qələbəmiz göstərir ki, bütün faşistlərin aqibəti, bax, ermənilərin aqibətinə bənzər olacaq".

Prezident qeyd edib ki, müharibə şanlı tariximizdir və bu tarix əbədi qalacaq, bu tarix dərindən öyrənilməlidir və öyrənilir: "Dünya miqyasında, dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində 44 günlük müharibə öyrənilir və Azərbaycanın göstərdiyi yeniliklər öyrənilir. Əlbəttə ki, texniki imkanlarımız müharibənin nəticələrinə ciddi təsir etmişdir. Ancaq bayrağı sancan, bayrağı ucaldan, öz sinəsini qabağa verən, ölümə gedən Azərbaycan əsgər-zabiti idi. Biz bu müharibəni, bu Qələbəni bizim qəhrəman hərbçilərimizə borcluyuq, şəhidlərimizə borcluyuq. İstənilən texnikan ola bilər, istənilən maddi imkanın ola bilər, əgər Vətən sevgisi yoxdursa, əgər milli ruh yoxdursa, əgər Vətən uğrunda ölümə getməyə hazır deyilsənsə heç vaxt Qələbə qazanmazsan. Dırnaqarası qəhrəman erməni əsgərləri bizim əsgərlərimizi görərkən müharibənin artıq ikinci mərhələsində silahları yerə qoyub qaçırdılar, bu gün də qaçırlar".

## "Bütün Qarabağ "yaşıl enerji" zonası olacaq, bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq"

Prezident İlham Əliyev çıxışı zamanı bildirib ki, bu gün azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənir və hazırda Şuşa şəhərinin Baş Planının hazırlandığını və bir müddətdən sonra təsdiqlənəcəyini qeyd edib: "Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin Baş Planları üzrə iş gedir. Amma birinci Baş Plan, bax, burada təsdiqlənəcəkdir. Artıq bir neçə tədbir keçirildi. Ağdam şəhəri üçün çox önəmli olan 1 saylı məktəbin təməli qoyuldu. Siz yaxşı bilirsiniz ki, bu məktəbin çox böyük tarixi var, 140 illik tarixi var. Gələcəkdə burada iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının təməli qoyuldu. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və orada yüzlərlə, gələcəkdə bəlkə də minlərlə insan işlə təmin ediləcək. Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu və artıq yaxın gələcəkdə yol istismara veriləcəkdir".

Prezident bildirib ki, Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. İmarət kompleksinin bərpası ilə əlaqədar artıq işlərə start verilir.

# Böyük Qayıdışa doğru: Ağdam dünyada örnək şəhər olacaq

## Prezident İlham Əliyev: "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır"

"Ağdamda İşğal muzeyi və Zəfər muzeyi konsepsiyası mənə təqdim edildi. Yer seçildi və həm Zəfər, həm İşğal muzeyləri çox möhtəşəm olacaq. Digər obyektlər, digər tədbirlər, böyük meşə sahəsinin təməli qoyuldu. Şəhərin içində böyük bir meşə zolağı olacaq - 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq. Yəni, bu gün bu görüşdən sonra birlikdə bizə bu təqdimat göstəriləcəkdir", - deyə Prezident İlham Əliyev Ağdamda və bütövlükdə Qarabağda həyata keçirilən və keçiriləcək layihələr haqqında danışıb.



### "Biz Ağdamı bir güllə atmadan azad etdik və bundan sonra burada əbədi olacağıq"

"Əminəm ki, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapacaq və biz sizinlə bundan sonra Ağdam şəhərində, Ağdam rayonunda çox görüşəcəyik",- deyən dövlət başçısı bildirib ki, hər zaman deyirdim ki, biz torpaqlara qayıdacağıq: "Bir daha dediyim sözlərə qayıtmaq istəyirəm, mən bu 17 il ərzində - 2003-cü ildən 2020-ci ilə qədər ovaxtkı məcburi köçkünlərlə bir çox görüşlər keçirmişdim və hər zaman onlara deyirdim ki, biz torpaqlara qayıdacağıq, siz torpaqlara qayıdacaqsınız. Ancaq görürdüm ki, son illər onların gözlərində ümidlər azalır. Görürdüm və bu da təbii idi. Çünki 30 ilə yaxın vaxt keçmişdi. Ancaq mən hər zaman əmin idim ki, bu, olacaq. Sadəcə olaraq, deyə bilmirdim. Sadəcə olaraq, deyə bilmirdim ki, nə vaxt olacaq, necə olacaq. Amma bilirdim ki, olacaq".

Müharibə dövründəki çıxışlarında və "Twit"lərində hər zaman həqiqətləri dediyini və yazdığını diqqətə çatdıran Prezident deyib: "Bir gün fikirləşdim, dedim ki, yəqin, ağdamlılar fikirləşirlər ki, bəs nə üçün indi Cəbrayıl azad olundu, Xocavənd azad olundu, Hadrut, Suqovuşan, Murovdağ, Füzuli, Zəngilan, Qubadlı, gör, haralara gedib çıxmışıq. Bəs nə üçün Ağdamın kəndləri azad olunmur? Fikirləşirdim, yəqin ki, siz fikirləşirsiniz, ağdamlılar fikirləşir. Amma özümü saxlayırdım, deyə bilmirdim ki, nə üçün, deyə bilmirdim. Amma indi hər kəs bilir nə üçün. Çünki əgər biz bu istiqamətdən hücuma keçsəydik, bir çox şəhidlərimiz olacaqdı. Çünki onlar elə bir istehkam qurmuşdular, elə minalamışdılar ki, buradan bizim hücum etməyimiz, əlbəttə, böyük səhv olardı. Ancaq biz bu istiqamətdə kifayət qədər böyük hərbi qüvvə saxlamışdıq ki, erməni ordusunun əhəmiyyətli hissəsi, bax, burada olsun. Beləliklə biz onların manevr imkanlarını böyük dərəcədə məhdudlaşdırdıq. Onsuz da biz Ağdamı alacaqdıq. Şuşa - alınmaz qala götürüləndən sonra mənim göstərişimlə növbəti istiqamət Ağdam oldu. Mən indi bunu deyə bilərəm. Artıq biz elə bil ki, arxa hissədən gələrək erməni qruplaşmasını mühasirəyə alıb tam məhv edəcəkdik".

Prezident İlham Əliyev deyib ki, Ermənistan tərəfi də bunu dərk edərək ağ bayraq qaldırmağa məcbur oldu: "Otuz il bizə meydan oxuyan, bizim əsəblərimizlə oynayan, xalqımızı təhqir edən, özündən uydurma qəhrəman düzəldən düşmən diz çökdü bizim qabağımızda, ağ bayraq qaldırdı, təslim oldu və kapitulyasiya aktına imza atdı. Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq".

### "Biz öz sərhədlərimizi bundan sonra möhkəmləndirəcəyik, heç kim bizə təzyiq edə bilməz"

Prezident İlham Əliyev Ağdam ictimaiyyəti ilə görüşü zamanı bildirib ki, biz öz sərhədlərimizi bundan sonra möhkəmləndirəcəyik, dövlət sərhədində möhkəmlənəcəyik: "Heç kim bizə təzyiq edə bilməz, heç kim bizə təsir edə bilməz".

"İndi bəzi ermənipərəst ölkələr, dairələr hansısa açıqlamalar verirlər. Versinlər, onların öz işidir. Avropa Parlamenti növbəti dəfə saxta faktlar əsasında qətnamə qəbul edib. Mən heç ona fikir vermirəm. Sizə də məsləhət görmürəm, Azərbaycan xalqına da məsləhət görmürəm. Bunlar hamısı əhəmiyyətsiz şeylərdir. Əhəmiyyətli məsələ odur ki, bax, biz bu gün buradayıq, burada oturmuşuq, burada durmuşuq və əbədi burada yaşayacağıq", - deyə dövlətimizin başçısı bildirib.

Prezident vurğulayıb ki, qırx dörd günlük müharibə və müharibədən sonrakı altı aylıq dövr bir daha göstərdi ki, kim kimdir, kim nəyə qadirdir. Biz də bir çox məsələləri xüsusilə beynəlxalq müstəvidə özümüz üçün yəqin etdik və bu, bizə gələcəkdə düzgün qərar qəbul etməyimizə kömək göstərəcək. "Bu gün əfsuslar olsun ki, Ermənistan tərəfi öz təxribatçı əməllərindən əl çəkmir. Mən bunu bir neçə gün bundan əvvəl mayın 10-da Naxçıvanda olarkən demişdim. Əgər biz görsək ki, xalqımızın, dövlətimizin təhlükəsizliyinə zərrə qədər təhlükə varsa, dərhal yerindəcə düşməni məhv edəcəyik",-deyən dövlət başçısı bildirib ki, onlar da bizim gücümüzü bilirlər və görürlər: "Ona görə son günlər ərzində Azərbaycan-Ermənistan sərhədi ərazisində Ermənistan ordusu tərəfindən törədilmiş təxribat, təbii ki, cavabsız qalmamalı idi və qalmadı. Növbəti dəfə rəzil oldular, növbəti dəfə biabır oldular. İndi görün, bütün dünya bunlara gülür. Baş nazir bir versiyanı deyir, baş qərargah rəisinin müavini başqa versiya deyir, özü də bir gündə. Bu versiyalar da yalandır".

Otuz il ərzində ermənilərin dövlət qura bilmədiklərini qeyd edən Prezident deyib ki, bu xalq ancaq başqa böyük dövlətlərin çərçivəsində yaşaya bilir. O böyük dövlətlərin imkanlarından istifadə edib, orada özü üçün həyat qura bilər. Otuz il ərzində bunların unikal şansı var idi - əgər bu işğal olmasaydı, əgər düşmənçilik olmasaydı, əgər bu vəhşilik ermənilər tərəfindən xalqımıza qarşı törədilməsəydi, bu gün bəlkə də Ermənistan da müstəqil dövlət kimi yaşaya bilərdi.

"İndi görün, necə, hansı rüsvayçı durumdadırlar. Açıq etiraf edirlər ki, öz dövlətini, öz sərhədlərini qoruya bilmirlər. Günahı biri-birinin üstünə atırlar - indiki hakimiyyət köhnə hakimiyyətin üstünə, köhnə hakimiyyət indiki hakimiyyətin üstünə. Amma əslində, onların hamısı günahkardır. Çünki onlar böyük səhv etdilər. Onlar düşünmürdülər ki, bu dərəcədə aciz vəziyyətə düşəcəklər və onların bütün bəlalarının səbəbkarları da özləridir" - deyə Prezident İlham Əliyev vurğulayıb.

### "Qırx dörd günlük müharibənin hər bir günü qəhrəmanlıq dastanıdır"

Dövlət başçısı bildirib ki, 44 günlük müharibə bizim gücümüzü göstərdi, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını göstərdi, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirdik, düşməni torpağımızdan qovduq: "Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, hər bir günü bizim üçün əzizdir, doğmadır. Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər", - deyə dövlətimizin başçısı vurğulayıb.

Azərbaycanın müharibə dövründə də özünü ləyaqətlə apardığını və müharibənin bütün qaydalarına riayət etdiyini bildirən Prezident deyib: "Məhz buna görə Ermənistan tərəfində mülki vətəndaşlar arasında itkilər həddindən artıq azdır. Biz ancaq işğalçı orduya qarşı mübarizə aparmışıq, müharibə aparmışıq. Dinc əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq. Ermənilərdən fərqli olaraq, soyqırımı törətməmişik və digər hərbi cinayətlər törətməmişik. Ancaq ermənilərin törətdikləri cinayətlər artıq bütün dünyaya bəllidir: Xocalı soyqırımı, digər kəndlərimizin sakinlərinin qətlə yetirilməsi, şəhərlərimizin dağıdılması. Baxın, görün, Ağdam şəhəri yoxdur. Cümə məscidinin qalıqlarından başqa, bir dənə də salamat bina yoxdur".

Prezident İlham Əliyev qeyd edib ki, bunu hansısa yad planetlilər deyil, bizim qonşumuz olan, çörəyimizi yeyən, torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər: "Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələrimiz söküldü. Bunun da bir neçə məqsədi var idi. Birincisi, bizə olan nifrət. İkincisi, Azərbaycan xalqının mədəni irsini bu torpaqlardan silmək məqsədi və əlbəttə ki, gələcəkdə elə bir vəziyyət yaratmaq ki, Azərbaycan əhalisi bu torpaqlara qayıda bilməsin".

### Prezident İlham Əliyev Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə müharibəni qaçılmaz edən səbəblərdən danışıb

Görüş zamanı dövlət başçısı müharibəni qaçılmaz edən səbəblərdən danışıb: "Çalışırdıq ki, məsələni sülh yolu ilə həll edək. Ancaq Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, sülh danışıqları, sadəcə olaraq, status-kvonun əbədi olmasına istiqamətləndirilmişdi". Dövlət başçısı bildirib ki, əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər 30 ilə yaxın davam edən danışıqlar müddətində aqressora - işğalçıya təzyiq göstərmədilər, onları məcbur etmədilər, onlara sanksiyalar tətbiq etmədilər: "Açıq-aydın demədilər ki, işğalçı qüvvələr Azərbaycan torpağından çıxmalıdır. Aqressor təbii olaraq, daha da azğınlaşırdı, daha da qudururdu və bu torpaqları əbədi işğal altında saxlamaq istəyirdi və bu, sirr deyil". Prezident İlham Əliyev qeyd edib ki, əgər birinci mərhələdə müəyyən ümidlərlə yaşayırdımsa, son mərhələdə artıq bu ümidlər də aradan qalxdı. "Çünki Ermənistan rəhbərliyi açıq-aydın bildirirdi ki, bu torpaqların bizə qaytarılması mümkün deyil. Belə olan halda faktiki olaraq danışıqlar prosesinə son qoyuldu. Mən bunu açıq-aydın bildirirdim. Bütün danışıqlar dövrü - 2003-cü ildən son hadisələrə qədər hər zaman Azərbaycan xalqına həqiqətləri çatdırırdım. Hər zaman deyirdim ki, biz heç vaxt bizim torpağımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik. Deyirdim, məsələnin həlli elə olmalıdır ki, bu, yarımçıq həll olmasın. Məhz buna görə bizim mövqeyimiz bir çox hallarda vasitəçilər tərəfindən birmənalı qarşılanmırdı. Bəzi ermənipərəst qüvvələr bizi günahlandırmağa çalışırdılar. Sanki biz aqressoruq, sanki biz işğalçıyıq. Ona görə Ağdam rayonuna binoklla baxarkən, bax, mən bu günü görürdüm və bilirdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmasa, müharibə qaçılmazdır. Xüsusilə keçən ilin iyul, avqust, sentyabr aylarında Ermənistan dövlətinin bizə qarşı hərbi təxribatları nəticəsində baş vermiş hadisələr artıq müharibəni qaçılmaz etmişdi".

Bir sözlə, ölkə başçısının qeyd etdiyi kimi, müharibə ilə bağlı çox danışmaq olar. Ancaq bu gün biz daha çox gələcəyimiz, Qarabağımızın dirçəldilməsi barədə danışmalıyıq.

Ümumilikdə isə Azərbaycan liderinin Respublika Günündə Ağdama səfərini, şəhərin təməlinin qoyulmasını və yerli sakinlərin uzun illərdən sonra ilk dəfə doğma yurdlarına qayıdışını tarixi hadisə adlandırmaq olar. Azərbaycan Cümhuriyyətin qurulmasından 103 il sonra eyni gündə daha bir tarixi ana şahidlik etdi - Yeni Ağdamın inşasına start verildi.

Bu gün həm də fəxrlə deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdış üçün bütün zəruri tədbirlər həyata keçirilir, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir. Şübhəsiz, yaxın gələcəkdə Qarabağın, Ağdamın, ümumilikdə işğaldan azad olunan bütün ərazilərimizin dirçəlməsinin, inkişafının, bütün Qarabağa yeni nəfəs veriləcəyinin, bu torpaqlarda həyatın qaynayacağının, dünya Azərbaycan xalqının quruculuq əzminin şahidi olacaq. Çünki Qarabağ bizimdir! Çünki Qarabağ Azərbaycandır! Çünki Qarabağ Azərbaycanındır!".

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycan dünya arenasında yüksək nüfuz qazanıb

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə 28 May Respublika Günü ilə bağlı ümumilikdə 60-dan çox ölkə rəhbəri tərəfindən yazılmış təbrik məktubları Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan nüfuzunun və genişlənən əməkdaşlığının göstəricisidir.***



*Rauf Əliyev,*
*Milli Məclisin deputatı*

Azərbaycan regionda yeni reallıq yaradaraq dünyanın siyasi xəritəsində öz status və rolunu artırmışdır. İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə Azərbaycanın əməkdaşlıq etdiyi prioritet ölkələr sırasına daxil olmaq üçün yalnız ABŞ və Rusiyanın deyil, həm də Çin və ABŞ-ın rəqabət aparması dövlətimizin artan nüfuzundan və regiondakı rolundan xəbər verir.

Əldə olunan uğurlar, artan nüfuz və iqtisadi potensialına görə, Azərbaycan bir çox ölkə rəhbərləri tərəfindən strateji tərəfdaş kimi dəyərləndirilir.

ABŞ Prezidentinin təbrik məktubu ölkələrimiz arasında etibarlı münasibətlərin göstəricisidir. Təbrik məktubunda ikitərəfli münasibətlərin çoxşaxəliliyinə xüsusi önəm verilir. Müstəqilliyimizin bərpasından keçən 30 ilə yaxın müddətdə ABŞ və Azərbaycan iki dövlətin xalqları arasında əlaqələri gücləndirərək təhlükəsizlik, enerji və demokratik idarətmə məsələlərində birlikdə fəaliyyət göstərib. ABŞ 2020-ci ildə Cənub Qaz Dəhlizinin işə salınması ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələri və bu il Xəzər dənizindəki "Dostluq" qaz yatağının Türkmənistanla birgə kəşfiyatına və işlənməsinə dair imzaladığı Anlaşma Memorandumumunu qətiyyətlə dəstəkləyir.

Rusiya Prezidenti öz təbrik məktubunda ölkəmizin sosial-iqtisadi, elmi-texniki və digər sahələrdə nəzərəçarpan uğurlar əldə etdiyini vurğulayıb. O Azərbaycanın dünya arenasında yüksək nüfuz qazandığını, beynəlxalq gündəlikdəki çoxsaylı mühüm məsələlərin həllində rol oynadığını bildirərək Azərbaycan ilə mehriban dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan münasibətləri yüksək qiymərləndirib. Məktubdan aydı olur ki, bundan sonra da xalqlarımızın rifahı, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi naminə Azərbaycan ilə strateji tərəfdaşlıq Rusiya üçün önəmli vəzifələrdən birini təşkil edəcəkdir.

Hazırda dünyanın ən böyük iqtisadiyyatına malik olan ölkələrdən biri olan Çin də Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır. Çin Xalq Respublikasının Sədrinin təbrik məktubunda ikitərəfli münasibətlərdə fəal inkişaf dinamikası müşahidə olunmasına, ölkələrimizin hər iki tərəfin əsas maraqlarına aid məsələlərdə bir-birini dəstəkləməsinə diqqət çəkilir. "Bir kəmər, bir yol" beynəlxalq layihəsi üzrə ölkələrimiz arasında əməkdaşlığın dərinləşməklə davam etməsi xüsusi olaraq vurğulanır. Beləliklə, dünyanın ən böyük iqtisadi güc mərkəzləri olan ABŞ, Çin və Rusiya Azərbaycanla birgə regional əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduqlarını bildirirlər. Bütün bunlar göstərir ki, regionun lideri və çoxsaylı beynəlxalq təşəbbüslərin müəllifi olan Azərbaycan əldə etdiyi uğurlar və qazandığı tərəfdaşlar sayəsində dünyanın siyasi xəritəsində öz statusunun yüksəlməsinə nail olub.

# "Qalib Liderin Qələbə yürüşü - Böyük Zəfərdən, Böyük Quruculuğa..."

**"Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev cənablarının 44 günlük müharibənin zəfərlə bitən və işğaldan azad edilən bölgələrə dərhal tarixi səfərləri hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır.**



Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfər Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi oldu ki, torpaqların əsl sahibləri qayıdıb... Azərbaycan öz əbədi və əzəli torpaqlarını işğalçılardan azad etdi. Qalib ölkənin Müzəffər Komandanı qazanılmış Qələbəyə möhürünü vurmaq üçün həmin ərazilərə tarixi səfərlərini edir". Bu fikirləri YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov SİA-ya açıqlamasında bildirib.

M.Balabəyov vurğulayıb ki, dövlət başçısını işğaldan azad olunan torpaqlara etdiyi tarixi səfərləri Qalib Liderin qalibiyyət özgüvənliyinin sübutu olduğunun göstтəricisidir: "30 ilə yaxın zaman müddətində həll olunmayan qondarma "Dağlıq Qarabağ" probleminin 44 gün ərzində həll olunması ilə 2020-ci il tariximizə Qələbə ili ilə Azərbaycan tarixinə yazıldı. Və Azərbaycan 44 gündə son əsrlərin ən böyük zəfərini yaşayır və ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Vətən Müharibəsinin 44 gün ərzində "Qarabağ Azəbaycandır və Qələbə NİDA"-sını qoyan və bununla da tariximizə ən parlaq səhifəsini yazmaqla bir daha sübut etdi ki, bu qalibin məğlub üzərindəki - Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, Rəşadətli əsgər və zabitlərimizin qələbəsidir. Bu, haqqın qələbəsidir. Bu, Azərbaycan xalqının qələbəsidir. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

Bəli, son 17 il Prezidentlik fəaliyyəti ərzində Ali Baş Komandanımız "bir qarış torpağımızı belə heç kəsə verən deyilik" xəbərdarlığının bu gün Azərbaycan xalqı, bütün dünya bir daha gördü ki, Qarabağ Azərbaycandır!" "Böyük tarixi qələbənini təntənəsi - "Xarı bülbül" festivalı isə növbəti xalqımıza verilən ən böyük müjdədir",-deyən M.Balabəyov vurğulayıb ki, bu səfər özünəgüvənlik bir səfərdir, bu tarixi ədalətin zəfəri, haqqın nahaq üzərində qələbəsinin, işığın zülmət üzərində təntənəsinin səfəri idi: "Bu səfər 1992 - ci ildə sat-qınlığın və xəyanətin qurbanı olan 2020-ci il 8 noyabrda Şuşa həsrətinə son qoyulduğu, Şuşanın əsil sahibinə "Qələbə yolu" ilə qayıtdığı, "Xarı bülbül"ün yenidən öz doğma yurd həsrətinə son qoyulduğu, erməni vandallarının Şuşada 17 məhəllə, 16 məscidimizin, qəbir yerlərimizin necə dağıdıldıması ilə bağlı dünyaya Qalib Liderin tarixi mesajları idi. "Xarıbülbül" musiqi festivalı - Azərbaycan xalqının milli birlik və həmrəyliyini nümayişidir. "Xarıbülbül" festivalının açılışında Prezident İlham Əliyev tarixdən də danışdı, dünyadakı proseslərə də toxundu, Azərbaycanın gələcəyə necə hazırlaşdığını, beynəlxalq münasibətləri, dövlətlər, xalqlar arasında əlaqələri necə gördüyünü də açıqladı. Qeyd etdi ki, biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk ki, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur".

Prezident İlham Əliyev "Xarıbülbül" musiqi festivalının açılışında çıxışı zamanı bildirib ki, Şuşanın özünəməxsus aurası var: "Mən dünyada Şuşaya bənzər zamanı əhər görməmişəm, bəlkə də yoxdur. Bu gün biz uzun fasilədən sonra azad Şuşada yığışmışıq. Bu gün Cıdır düzündə Azərbaycan muğamı səslənəcək. Uzun fasilədən sonra biz Şuşada bu gözəl musiqi bayramını qeyd edəcəyik. Bu gün, sözün əsl mənasında, musiqi bayramıdır. Bəli, biz 8 noyabrda Şuşaya döyüşərək, vuruşaraq, qan tökərək qayıtmışıq. Ancaq bu gün Azərbaycan mədəniyyəti, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri Şuşaya qayıdıblar və bu qayıdış reallıqdır, bu reallıqla hər kəs hesablaşmalıdır".

"Bəli, adını tariximizə, xalqın qəlbinə qızıl hərflərlə yazdırmağı bacarmış Ulu Öndərin qoruyub saxladığı, dirçəldib müstəqil ölkə kimi irəli daşıdığı Azərbaycan bu gün dünyada 21-ci əsrin müharibəsini aparan qalib dövlət kimi tanınır. Heydər Əliyevin vəsiyyəti Dağlıq Qarabağın, Şuşanın yenidən əzəli sahibinə qaytarılması olmuşdu ki, bu tarixi missiyanı onun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev ötən il uğurla həyata keçirdi. "Xarıbülbül" festivalı bir daha onu göstərir ki, biz Şuşaya birdəfəlik qayıtmışıq və bundan sonra burada əbədi yaşayacağıq", deyə M.Balabəyov bildirib.

***RƏFİQƏ KAMALQIZI***

# "Bu, Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərəcək"

Filiz yataqlarının istifadəyə verilməsi, Azərbaycanda filiz istehsalının genişləndirilməsi, eyni zamanda bu istiqamətlərdə ölkəyə valyuta daxilolmalarının artmasına imkan yaradacaq. Bu sözləri SİA-ya verdiyi açıqlamasında iqtisadçı-ekspert, millət vəkili Vüqar Bayramov deyib. Millət vəkilinin sözlərinə görə, nəzərə alsaq ki, hazırda dünya bazarında filizin qiymətlərində artımlar müşahidə edilir, eyni zamanda filiz strateji məhsul olaraq ölkəyə ən çox valyuta gətirən məhsullardan biri kimi qiymətləndirilir və mütəmadi olaraq biz dünya bazarında filizə tələbin artmasını müşahidə edirik.



"Xüsusən qonşu ölkələrdə, regionda, o cümlədən Avropa Birliyində bu məhsullara tələbin artması istehsal edilən məhsulların ixrac imkanlarının yaranmasından xəbər verəcək. O baxımdan bir tərəfdən yataqların qiymətləndirilməsi və işlənməsi yeni iş yerlərinin yaradılmasına imkan verəcək, nəzərə alsaq ki, burada həm ixtisaslı kadrlar, həm də digər vətəndaşlarımızın işlə təmin olunmasına imkan yaradılacaq və nəticə etibarı ilə bu, məşğulluğun təmin edilməsi baxımından çox vacibdir.

Digər tərəfdən bu imkan verəcək ki, Azərbaycan filizə olan tələbi yerli istehsal hesabına ödəməklə yanaşı həm də məhsulların bir qismini ixrac etsin, bu da ölkəyə daha çox daxil olmasına imkan verəcək və nəticə etibarı ilə bu, Azərbaycana daxil olan valyutanın həcminin artmasına imkan verəcək. Xüsusən, nəzərə alsaq ki, bu məhsulun ixracatından əldə edilən gəlirlər daha dayanaqlı hesab olunur, bu da təbii ki, Azərbaycana valyuta gəlirləri və bütövlükdə dövlət gəlirlərimizin artmasına imkan yaradacaq. O baxımdan yataqların işlənməsi və bu istiqamətdə istehsalın genişləndirilməsi Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərəcək. Xüsusən nəzərə alsaq ki, 2021 və növbəti illərdə Azərbaycan iqtisadiyyatında artım tempinin bərpa edilməsi və daha sürətli iqtisadi artım proqnozlaşdırılır və nəticədə bu da təbii ki, Azərbaycanda proqnozlaşdırılan iqtisadi artıma müsbət töhfələrini verəcək" deyə Vüqar Bayramov bildirib.

***İnam Hacıyev***

# Uşaqlarda ən çox rast gəlinən göz xəstəlikləri



Texnologiyalar uşaqların gözünə təsirsiz ötüşmür. Saatlarla telefona və ya kompüterə baxan balacalar sonralar onun fəsadları ilə üzləşirlər. Azyaşlıların müasir texnologiyalardan istifadəsi məsləhət görülməsə də, məktəbyaşlı uşaqlar kompüterdən yararlana bilərlər. Bu zaman hər yarım saatdan bir 15 dəqiqə fasilə verməklə uzaq məsafəyə baxaraq gözə istirahət vermək məsləhətdir.

Həkimlərin dediyinə görə, televizor qarşısında həddindən çox vaxt keçirən və planşetdən istifadə edən uşaqlarda görmə qabiliyyəti zəifləyir. Ümumilikdə isə 2 yaşa qədər uşaqların telefondan istifadə etməməsi məsləhətdir. Bakı Baş Səhiyyə İdarəsinin baş oftalmoloqu Sevda Bəşirova AZƏRTAC-a bildirib ki, uşaqlar normal halda bir dəqiqədə gözlərini 16-18 dəfə qırpmalıdır: "Kompüter, planşet və telefondan istifadə edən uşaqların gözqırpma sayı azalaraq 10 dəfəyə qədər düşür, eyni zamanda gözdə quruluq, qaşınma, diskomfort, yaşarma kimi hallara rast gəlinir".

Göz ətraf təsirə qarşı ən həssas orqan olduğuna görə həkimlər valideynlərə diqqətli olmağı məsləhət görürlər. Uşaqların əl gigiyenasına, eləcə də onların telefon və planşetlərdən istifadəsinə diqqət yetirməlidirlər.

Təcrübə göstərir ki, uşaqlar arasında göz tənbəlliyi, çəpgözlük, miopiya, hiperopiya, astiqmatizm kimi göz xəstəlikləri üstünlük təşkil edir. Ona görə ildə bir dəfə onların gözlərini müayinə etmək tövsiyə olunur."

# Rusiyalı ekspert: Ermənistan dəhlizi açmağa məcburdur!



## Nikolay Kojanov: "Nəqliyyat dəhlizlərinin mühüm elementi kimi heç bir halda Ermənistan deyil, məhz Azərbaycan çıxış edir"

Rəsmi Bakının nəqliyyat kommunikasiyaları ilə yanaşı, Zəngəzur dəhlizinin açılması, eləcə də Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiyası və delimitasiyasındakı mövqeyi dəyişilməz qalır. Əbəs deyil ki, bununla bağlı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə həmsədri Toyvo Klaarla apardığı telefon danışığında da sözügedən məsələ barədə vurğulayıb. XİN rəhbərimiz bundan öncə də sərhədyanı məsələlərdə gərginliyin aradan qaldırılmasının mühümlüyü barədə fikirlərini vurğulayıb, mövcud fikir ayrılıqlarının danışıqlar yolu ilə tənzimlənməsinin tərəfdarı olduğunu qeyd edib, eləcə də sərhədlərin delimitasiyası və demarkasiyasında üçtərəfli komissiyanın yaradılması təklifinin dəstəkləndiyini bildirib.

### Prezident İlham Əliyev: "Bu məsələ Azərbaycanın, Rusiyanın və Ermənistanın baş nazirləri çərçivəsindəki formatda müzakirə edilir və yaxşı nəticələr var"

Lakin ən əsası, Azərbaycan Prezidenti İlham Əliyev də bəyan etmişdi ki, erməni tərəfi bu kimi məsələləri müvafiq qaydada analiz edir, Zəngəzur dəhlizi ilə bağlı sualların müsbət cavab tapması istiqamətində anlayışını göstərir. "Sizin bildiyiniz kimi, indi müzakirələr üçtərəfli formatda aparılır. Bu məsələ Azərbaycanın, Rusiyanın və Ermənistanın baş nazirləri çərçivəsindəki formatda müzakirə edilir və yaxşı nəticələr var", deyə dövlətimizin başçısı vurğulamışdı.

Lakin bununla yanaşı, Ermənistanın baş naziri vəzifəsini müvəqqəti icra edən Nikol Paşinyan son günlər maraqdoğurucu və bir-birini vuran bəyanatlar səsləndirib. O, Ermənistan vətəndaşlarını Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyasından, həmçinin, regional kommunikasiyaların açılmasından qorxmamağa çağırıb. Dövlət başçımız həmçinin bəyan edib ki, İrəvan ilk növbədə dəmir yollarının açılmasını mühüm hesab edir.

### Paşinyanın üst-üstə düşməyən fikirləri

Ancaq Paşinyan eyni zamanda qeyd edib ki, Bakı ilə Ermənistan ərazisindən Naxçıvana keçən dəhliz barədə müzakirə aparmayacaq. Buradan isə Ermənistan rəhbərinin sözlərindən məntiq çıxarmaq çətindir. O, bir tərəfdən kommunikasiyaların açılmasından danışır, digər tərəfdən Zəngəzur dəhlizinin əksinə olan bəyanat səsləndirir, üstəlik üçtərəfli bəyanatda bu haqda qeyd olunmadığını iddia edir. Bəlkə də orada "dəhliz" sözü istifadə olunmayıb, amma bəyanatda açıq-aydın vurğulanır ki, Ermənistan Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasındakı nəqliyyat rabitəsinin təhlükəsizliyinə zəmanət verir və s.

### Rusiyalı ekspert: "Moskva Naxçıvanla nəqliyyat rabitəsinin təminatının əhəmiyyətini nəzərə alır"

SİA xəbər verir ki, mövzu ilə bağlı rusdilli mətbuata münasibət bildirən Rusiyanın Elmlər akademiyası nəzdindəki Dünya iqtisadiyyatı və beynəlxalq əlaqələr institunun baş elmi əməkdaşı, Qətər universitetinin Fars körfəzi ölkələri üzrə araşdırma mərkəzinin dosenti Nikolay Kojanova görə, bu məsələ hazırda Ermənistan üçün daxili siyasi xarakter daşıyır. "Burada düşüncənin müxtəlif səviyyələrinə diqqət etmək lazımdır. Rusiya tərəfindən nəzər salarkən görünür ki, məqsəd nəqliyyat dəhlizlərinin inkişafıdır və onlar Cənubi Qafqaz sərhədlərini aşır. Ermənistan rəhbərliyi isə hər şeyi elə də uzaqda olmayan hadisələr cəhətindən hesablayır, müharibədə məğlubiyyət və s. Beləliklə, məğlub olan tərəfin müharibə sindromundan danışmaq olar. Bir çox məsələlərdə bu amil situasiyaya qərəzsiz şəkildə baxmağa imkan vermir", Kojanov deyib.

Onun sözlərinə görə, Moskva Naxçıvanla nəqliyyat rabitəsinin təminatının əhəmiyyətini nəzərə alır və eləcə də Cənubi Qafqaz dəhlizləri də təhlükə altında qalmalı deyillər: "Obyektiv danışsaq bu nəqliyyat dəhlizlərinin mühüm elementi kimi heç bir halda Ermənistan deyil, məhz Azərbaycan çıxış edir ki, bu da İrəvanda xoş təsir bağışlamır".

Ekspert İrəvanda səsli-küylü olmasa da, artıq ayrı-ayrılıqda bir sıra dairələr tərəfindən Ermənistanın əbədi müharibə aparmasının boş bir iddia olması, təcrid vəziyyətindən çıxılması barədəki fikirlərinin səslənməsinə də münasibət bildirib. Konkret olaraq sərhədlərin açılacağı, nəqliyyat dəhlizlərinin istifadəyə veriləcəyi ilə bağlı sualı cavablandıran Nikolay Kojanov bildirib ki, iqtisadi maraqlar həmişə öncüllük təşkil edir. "Və unutmaq lazım deyil ki, artıq Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasındakı nəqliyyat rabitəsi barədə sənəd imzalanıb. Ona görə də bu, qaçınılmazdır", deyə rusiyalı ekspert vurğulayıb.

***Rövşən RƏSULOV***

# Niyə hər kəs vaksinasiya olunmalıdır?

## SİA TƏBİB-in İctimaiyyətlə əlaqələr və müraciətlərlə iş departamentinin rəhbəri Aygün Əliyevanın müsahibəsini təqdim edir:

*- Pandemiyadan ötən bir ildən artıq dövr ərzində ölkəmizdə hansı işlər görülüb, Azərbaycanın uğurlu mübarizə modelinin əsas istiqamətləri hansılardır?*

- İstər beynəlxalq sferada, istər tibb, istərsə də sosial siyasət sahəsində pandemiya ilə bağlı görülən işlər göz önündədir. Doğrudan da, Azərbaycan ortalığa uğurlu bir mübarizə modeli qoyub. Ümumiyyətlə, ölkə Prezidenti hələ pandemiyanın yayıldığı ilk dönəmlərdə xalqa müraciətində dəfələrlə Azərbaycan vətəndaşının sağlamlığının, ölkə siyasətinin prioriteti olduğunu diqqətə çatdırıb. Təsadüfi deyil ki, istər beynəlxalq istiqamətdə, istər türkdilli dövlətlərin, istərsə də BMT sessiyası çərçivəsində Azərbaycan bir neçə beynəlxalq səviyyəli görüşlərin təşəbbüskarı olub. Hələ cənab Prezident ötən ilin dekabr ayında bütün dünya ölkələrinə dərman təchizatının, vaksinlərin bərabər bölgüsünün əsas şərt olduğunu diqqətə çatdırıb və təsadüfi deyil ki, üstündən keçən bir ildən artıq, vaksinlərin əlçatanlığı dönəmində bəzi dövlətlər tərəfindən bu qeyri-bərabərsizliyi görürük. Tibb sahəsində istər həkimlərin əmək haqqının qaldırılması, istər tez bir zamanda modul tipli xəstəxanaların açılması, istərsə də laboratoriyaların fəaliyyətinin genişləndirilməsi, bunlar hamısı pandemiya ilə mübarizədə Azərbaycanın uğurlu modelini diqqətə cəlb etdi. İstər sahibkarlara göstərilən dövlət dəstəyi, istərsə də, ayrı - ayrı vətəndaşlara, aztəminatlı ailələrə, eyni zamanda aztəminatlı ailələrdən olan uşaqların təhsil haqlarının ödənilməsi, bunlar hamısı kompleks tədbirlər idi və bu gün biz artıq müsbət nəticələrdən danışırıq. Bu özü təsadüfi deyil və bütün bu kompleks tədbirlərin nəticəsidir ki, Azərbaycan doğrudan da pandemiya ilə mübarizədə önə çıxan və nümunə göstərən ölkələr sırasındadır.



*- Artıq nəticələr göz önündədir, həm yoluxmaların sayında, həm də ölüm sayında azalmalar var. Bu da təbii ki, uğurlarımıza növbəti bir uğur qatır. Bu vaksinasiya prosesinin müsbət cəhətləri nədən ibarətdir? Niyə hər kəs mütləq şəkildə vaksinasiya olunmalıdır?*

- Ümumiyyətlə, tarix boyu vaksinə qarşı münasibət heç vaxt birmənalı olmayıb. Müəyyən qrup insanlar vaksin olunmaqdan çəkiniblər. Amma vaksinlərin min ilə yaxın yaşı var və müxtəlif onilliklərdə və yüzilliklərdə qarşıya çıxan böyük infeksion xəstəliklərin qarşısının alınmasında vaksinlərin müstəsna rolları var. Bütün bu tarixi faktlar onu deməyə əsas verir ki, infeksion xəstəliklərə qarşı hələ dərman vasitəsi istehsal olunmayıbsa, vaksin iqtisadi cəhətdən ən sərfəli, tibbi cəhətdən isə ən effektiv üsuldur. Mütləq birmənalı şəkildə insanlar vaksinasiyaya cəlb olunmalıdır və bu gün rəqəmlərin aşağı düşməsi, yumşalma tədbirləri, bütün bunlar sürətli vaksinasiyanın nəticəsidir. Ötən il bu vaxtı rəqəmlər daha fərqli idi. Hətta müəyyən qadağalar var idi. Haqlı olaraq bunlar cəmiyyətdə müəyyən psixoloji sosial gərginlik yaradırdı. Amma bizim birlikdə fəaliyyətimiz, yəni, tibb müəssisələrinin insanları vaksin etməsi və insanların da onlara inanması nəticəsində bu gün artıq yumşalmalara gedirik, hətta bugündən açıq havada maska qadağası götürülüb, metroların fəaliyyətinə icazə verilib.

*- Artıq ölkə vətəndaşlarının bir qismi peyvəndin hər iki dozasını qəbul edib. Onlar bundan sonra da sosial məsafə saxlama qaydalarına əməl etməlidirlər?*

- Bəli hər iki dozanı qəbul edən vətəndaşlar da özləri üçün təhlükə mənbəyi olmasalar belə, ətrafdakı insanlar üçün, xüsusilə peyvənd olunmayan, həssas qrupa aid olan insanlar üçün təhlükə mənbəyi olaraq qalırlar. Üst tənəffüs yollarında onlar virus gəzdirə və digər insanları yoluxdura bilərlər. Ona görə də hələ ki pandemiyanın mövcud olduğu dönəmdə fiziki məsafə qaydaları, maska, əl gigiyenası önəmli addımlar olaraq qalır və bu addımlara mütləq riayət olunmalıdır.

*- Artıq yanvar ayından başlayan mərhələlərlə vaksinasiya aprel ayından, həm də səyyar vaksinasiya tədbirləri ilə sürətləndirildi. Ölkədə bununla bağlı son durum necədir?*

- Yanvarın 18 - dən başlayaraq ölkəmizdə vaksinasiya tətbiq olunub və ölkəmiz öz vətəndaşlarına vaksin tətbiq edən ilk ölkələr sırasındadır. Vaksininin əldə olunması bizim üçün çox ciddi bir şans idi. Onun əldə olunması üçün hələ pandemiyanın yayıldığı ilk dönəmlərdə istər ikitərəfli, istərsə də çoxtərəfli platformada danışıqlar gedirdi. Çünki vaksin əldə olunandan sonra onun əlçatanlığı çox ciddi məsələdir və yanvarın 18 - dən başlayaraq, ilk olaraq tibb işçiləri üçün, daha sonra 65 yaşdan yuxarı, mərhələli şəkildə 50 yaşdan, 40 yaşdan yuxarı, may ayından başlayaraq artıq 18 yaşdan yuxarı hər kəs vaksin oluna bilər. Son statistika onu göstərir ki, artıq ölkəmizdə insanların vaksinə çox ciddi marağı yaranıb, 9 mindən artıq vətəndaş artıq ikinci dozanı qəbul edib. Bir milyon 300 - dən artıq vətəndaşımız isə birinci dozanı qəbul ediblər. Bu böyük bir göstəricidir və aprel ayından başlayaraq, səyyar vaksinasiyaya başlanıldı. Çünki dövlət qurumlarının əksəriyyəti müraciət edirdilər ki, istəyirdilər öz iş yerini tərk etmədən, olduqları yerdə vaksin olunsunlar. Aprel ayından başlayaraq, 100 - dən artıq dövlət qurumunun və özəl sektorun müraciətləri nəzərə alınıb. Səyyar vaksinasiya nəticəsində 25 mindən artıq əməkdaş öz iş yerini tərk etmədən 1 - ci dozanı, təxminən 7 mindən artıq əməkdaş isə 2 - ci dozanı artıq qəbul ediblər və yaxın günlərdə Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin təşəbbüsü ilə TƏBİB öz səyyar vaksinasiyasını burada qurdu. 100 - ə yaxın Gənclər Birliyinin könüllü üzvü vaksinasiyaya cəlb olundu.

***Ayşən Vəli***

# İntihar hallarının artması bu amillərlə bağlıdır

## Mütəxəssislər xəbərdarlıq edir

**"Uşaq intiharlarının artmasının müxtəlif səbəbləri var. Əvvəla, ətrafda çox güclü psixotron təzyiqin, mənəvi terrorun olduğunu qeyd etməliyik. Bununla belə, etiraf etməliyik ki, burada əsas günah demək olar ki, 99 faiz hallarda valideynlərdədir. Uşaqlara tərbiyə verməyi arxa plana atıb, onları tam nəzarətsiz buraxıblar. Siz heç əlində kitab, qəzet oxuyan və ya bir-biri ilə şahmat oynayan uşağa, yeniyetməyə rast gəlmisinizmi? Son illərdə mən rast gəlməmişəm". Bu sözləri SİA-ya açıqlamasında "Altay" sosial-iqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri, sosioloq Elçin Bayramlı deyib.**

Onun sözlərinə görə, valideynlər azyaşlı uşaqların əlinə bahalı smartfonlar alıb verib, yaxalarını kənara çəkiblər: "İnternetdə ağıla gələn və gəlməyən hər cür təhlükəli materiallar var. Hansı ki, psixikaya çox ağır zərbə vurur, dəyərlər sistemini dəyişdirir, əxlaqsızlığı, narsizmi, eqoizmi, həzz və əyləncədən üstün dəyər olmadığını təbliğ edir. Televiziyaların burada müstəsna rolu var. Xüsusən, özəl televiziyalar və orada çıxış edən bir çox məşhurlar var gücləri ilə insanların xüsusən yeniyetmə və gənclərin əxlaqını pozmağa, ailə institunu dağıtmağa, uşaq tərbiyəsini lazımsız bir şeyə çevirməyə açıq şəkildə səsləyir. Seriallar, şou verilişlər mənəvi dəyərləri məhv edir. Valideynlər də uşaqları ilə oturub bunlara baxırlar".



Sosioloq həmçinin qeyd etdi ki, elm sübut edib ki, televiziya insan psixikasına hər şeydən güclü təsir edir: "Bu vasitə ilə onu istədiyi istiqamətə yönəldə bilirlər. Subliminal mesajlarla, 25-ci kadrlarla dolu olan tele-istehsallar şüuraltına işləyir və yalnız pis məqsədlərə xidmət edir. Buraya müasir cizgi filmlərini və komputer oyunlarının psixika dağıdıcı təsirini də əlavə etsək, mənzərə tamamlanar. Mən hələ görməmişəm ki, özəl televiziyalarda alimlər danışa, elm, təhsil təbliğ edilə, intellektual yarışlar təşkil edilə, müasir texnologiyalar öyrədilə. Yalnız dövlət kanallarında bu var. Yəni, ətrafdan çox güclü psixotron təzyiq, daha doğrusu terror var. Bu terroru qlobal mütəşəkkil təşkilat bütün ölkələrdə həyata keçirir. Bunların ilik dövriyyəsi milyardlarla ölçülür. Uşaqları bunların caynağına buraxmaq olmaz. Onlar bu psixotron terrorun öhdəsindən gələ bilməz. Ona görə də istisnasız olaraq bütün bu kimi hallarda valideyn günahkardır".

Elçin Bayramlı fikrini bildirib ki, konkret olaraq uşaqlarına sahib çıxmayan onların tərbiyəsi ilə məşğul olmayan, onlara vaxt diqqət və ayırmayan, qayğı göstərməyən, fasiləsiz olaraq nəzarət etməyən valideynlərin övladları böyük risk altındadır: "Məncə, intihar edən uşağın valideyni həbs edilməlidir, hansısa formada sərt cəzandırılmalıdır. Bəlkə bu qorxu onları nəhayət uşaqlarla məşğul olmağa vadar edə. Başqa çıxış yolu görmürəm".

"Pandemiyanın vurduğu zərərlərdən biri də insanlarda psixoloji gərginliyin yaranmasına səbəb oldu". Sözügedən məsələyə psixoloq Fərqanə Mehmanqızı münasibətini bildirib.

Onun sözlərinə görə, bu gərginlik daxili və xarici aqressiyaya, intihara gətirib çıxardır: "Bu gün artıq psixoloqların da dediyi fakt üzə çıxır. İnsanlarda evə qapanma, cəmiyyətdən təcrid olunma daxili və xarici aqressiyanın yaranmasına gətirib çıxartdı. Hər bir insan, insan psixologiyası və hadisələrə yanaşma tərzi individualdır. Bu yanaşmadan dolayı da travmaları da müəyyən dərəcələrə uyğundur. Yəni hər kəs öz xarakterinə uyğun olaraq, travma alır. Həssas insanların travması daha yüksək olur və aldıqları travmaların nəticələrində də verdikləri reaksiyalar da yüksək olur. İntihar edən şəxslərin də həssaslığı, aldığı psixoloji travmalar var. Yəni səbəb daxili özgüvənsizlik, daxildə yatan travmalardır. Maddi durum, işsizlik buna səbəb ola bilər".

Psixoloq həmçinin qeyd edib ki, insan yaranandan azadlığa meyillidir: "Pandemiyada insanın əlindən azadlığı aldılar. Bir insan cinayət törədəndə ən böyük cəzalardan biri onu azadlıqdan məhrum etmək olur. Bu bir il ərzində heç bir cinayət törətmədən, heç bir günah işləmədən azadlıqdan məhrum olundu. Bu da insanlarda psixoloji gərginliyin yaranmasına gətirib çıxartdı. Bu hamısı şüur altında baş verən hadisələrlə bağlıdır. Bir növ şüuraltı oyunlardır. Psixoloji həssas olan insanlar bu gün bunun əziyyətini çəkirlər. Bunun nəticəsində intiharlar, ailədaxili şiddət, aqressiya artır. İnsanların bir-birilərinə qarşı impatiyası aşağı düşür. İmpatiya bacarığı aşağı düşdükcə insanlar bir-birini dinləmir və bu dinləməzlik nəticəsində yalnızlığa gətirib çıxarır. "Mən heç kimə lazım deyiləm", "mən gərəksizəm" kimi fikirlərlə insanlar özlərini məhv edirlər".

***Arzu Elsevərqızı***

# "Qəssabını gözləyən "quzu"nun son ümid yeri..."

## Zatulinin Rusiya Dövlət Dumasından kənarlaşdırılması ehtimalı ermənilərin canına vəlvələ salıb

Ara, ay ermənilər, ayıq olun, deyəsən, dünyanın çərxi dönüb deyə, indi artıq çoxları bizim "tutarlı yalanlarımıza" inanmaq istəmirlər. Ona görə də, ehtiyatı əldən vermək olmaz, indi artıq "...bizim "dost" itirən vaxtımız deyil". Son zamanlar onsuz da bizi yaxından tanımağa başlayıb və bizdən uzaqlaşanların sayı çoxalıb. Belə görünür ki, ermənilər üçün daha muzdlu "dostları" əldə saxlamaq daha da çətin olacaq. Ona görə də, heç olmasa əlimizdə olanların ətəklərindən möhkəm yapışmalıyıq. Onların "qırıb qaçmalarına" imkan verməməliyik. Onsuz da dünyadakı dostlarımız azalmağa doğru gedir. Amma onlar "böyük erməni xalqı" qarşı etdikləri "haqsızlıqlara" görə, nə vaxtsa tarix qarşısında olmasalar da, "ermənilər qarşısında cavab verməli" olacalar...



Ey mənim erməni qardaşlarım, eşitmiş olarsınız, deyilənə görə, ermənilərin ən sadiq "dost"larından biri olan Konstantin Zatulini "yerindən tərpətmək istəyirlər". Son zamanlar onun hətta Rusiya Dumasından qovulmaq ehtimalı da gündəmdədir. Ayə, bəs onda biz ermənilər neylərik?

Əslində, Zatulin kimi "sədaqətli yoldaşı" itirmək biz ermənilər üçün faciə ola bilər. Siz heç bunu fikirləşmisinizmi? Ona görə də, təcili əlavə fəaliyyətə keçmək lazımdır. Yoxsa, gec olar. Yəni, biz günü elə bu gündən başlayaraq, Zatulin "yoldaş"ın Rusiyanın VIII çağırış Dövlət Dumasına yenidən deputat seçilməsi üçün hər yola əl atmalıyıq. Yəni əslində Zatulin təbliğ edilməsi biri olmasa da, amma biz onu hər yolla təbliğ etməliyik. Amma nə yolla, bax, əsl məsələ də bundadır.

Ay ermənilər, xəbəriniz olsun, deyirlər, artıq Zatulin "yoldaşa" alternativ də "tapılıb". Özü də, onun Zatulin "yoldaşa" qalib gəlmək şansının böyük olduğu da deyilir. Onu da deyirlər ki, "yoldaş" Zatulin bunu eşidəndən "matı-qutu" quruyub. Daha sonra onu da deyirlər ki, erməni xalqının "böyük dostu" indi küçədə ağaca bağlanıb kəsiləcəyi anı gözləyən quzuya dönüb. Hazırda onun hər yerdən əli üzülüb deyə, biz ermənilərdən "dəstək" gözləyir.

Amma, unudur ki, bu gün biz ondan da pis gündəyik. Bəlkə onu da unudur ki, bu gün "etibarlı böyük qardaşımız" frənglərdən başqa hamı bizə dal çevirib. Daha üzümüzə "baxmaq" belə istəmirlər. Baxanlar da, elə-belə...

Buna baxmayaraq, yenə də, ermənilər anlamalıdırlar ki, Zatulin "yoldaş" getsə, bu bizim bəzi gizli yalanlarımızın faş olmasına səbəb ola bilər. Çünki o bütün erməni bicliklərini mənimsəyərək, ermənilər üçün "yetişmiş bir kadr" kimi "formalaşıb". Əslinə baxsaq, o özü də biclikdə biz ermənilərdən elə də geri qalmır. Belə ki, o bizim diaspordan aldıqları milyonlar azmış kimi, hələ bir İrəvanda "Lazarev klubu" kimi "saxta" bir qurum da "düzüb-qoşmuşdu" və bu qurum vasitəsilə hər ay 1 milyon rubla yaxın "ermənilərin halal pulunu mənimsəyir".

Ancaq buna baxmayaraq, biz ermənilər ona çox öyrəşmişik. Elə o da, bizə olmasa da, diasporumuzdan aldığı pullara öyrəncəli olub. Ona görə də, bütün bunlara baxmayaraq, biz Ermənistan erməniləri, Soçi və Rusiyanın digər əyalətlərindəki erməni diasporu nümayəndələri ilə əl-ələ verib, "suveren" erməni xalqının "vətənpərvər" dostu Konstantin Zatulinin deputatlıqdan "qovulması"nın qarşısını almağa çalışmalıyıq.

***Ağasəf Babayev***

# "Rusiya özü qırmızı xətləri müəyyənləşdirir"

**Qərb hərbi birləşməsi Rusiyanın ən güclü birləşmələrindəndir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Fərhad Məmmədli deyib. Politoloqun sözlərinə görə, bu birləşmə, Arktikadan Qara Dənizə qədər Rusiya ərazisinə nəzarət edir.**

"Nəzərə almaq lazımdır ki, NATO da bir neçə il ərzində şərqi Avropada hərbi bazalarını gücləndirib. Eyni zamanda Belorusiyada cərəyan edən son proseslər və bir neçə ay bundan əvvəl, ilin əvvəlindən Ukraynanın Donbas vilayətində eskalasiyaya doğru addımlar atılırdı və hərbi birləşmələr hər iki tərəfdən münaqişə bölgəsinə yerləşdirilirdi. Yəni, bu nöqteyi nəzərdən Rusiya da yeni məntəqələrin salınmasına qərar verdi. Rusiya, Putinin də dediyi kimi, özü qırmızı xətləri müəyyənləşdirir və eyni zamanda NATO ilə münasibətdə, Ukrayna ilə münasibətdə güc faktorundan daim istifadə edir. Bu məsələni də, yəni, 20-dən çox yeni məntəqələrin formalaşmasını məhz bu yanaşma kontekstində başa düşmək lazımdır.



Bölgə ölkələri üçün bu, birincisi o deməkdir ki, artıq son 5 il ərzində bu bölgə militarizasiyaya doğru, yəni hərbləşməyə doğru gedir. Onun nəticəsidir ki, diplomatik yollarla olan ziddiyətləri aradan qaldırmaq mümkün deyil, sanksiyalar dövrüdür və bu dövrdə də güc faktoru önə çəkilir. Ona görə də məhz hərbləşmə son dövrlərin bir trendinə çevrilibdir.

Cənubi Qafqaz üçün əlbəttə, bu yeni bir şey deyil. Azərbaycan Respublikası hər zaman həm iqtisadi gücə, həm yumşaq gücə, amma ən çox hərbi gücə üstünlük veribdir və 44 günlük müharibə də bunu göstərdi. Dünyada yeni formalaşan trend budursa, Azərbaycan son 25 il ərzində məhz hərbləşməyə üstünlük veribdir və bunun nəticəsini də görübdür", deyə Fərhad Məmmədli bildirib.

***İnam Hacıyev***

# COVİD-19 pasportu nə üçündür?

"Covid-19 pasportunun tətbiq olunması iki doza peyvənd almış insanların həm rahatlıqla ictimai məkanlarda, həm məhdudlaşma tələb olunan yerlərdə rahatlıqla hərəkətini, həm də özlərinin asudə vaxtlarını keçirmək üçün idman zallarına, ictimai iaşə məkanlarına və digər mərkəzlərə daxil olmasını asanlaşdırır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, həkim Müşviq Məmmədli deyib.

Onun sözlərinə görə, bu pasport insanların bir-biri ilə təması zamanı yoluxma riskinin aradan qaldırılmasına səbəb olur: "Çünki, Covid-19 pasportunun tətbiqi bir növ müsbət mənada müxtəlif təlimatlardan və o cümlədən də, vaksinasiya olunmayanların motivasiyasını təmin edəcək. Bu pasportla həm hərəkət, həm də bizim arzuladığımız fəallıq daha da rahatlaşır. İkinci məsələ bundan ibarətdir ki, artıq uzun zamandır səyahət istiqamətində insanlar müxtəlif qarşıdurma ilə qarşılaşırlar. Bu istər xarici ölkələrə səfərdə, istərsə də hava nəqliyyatından istifadə etdikdə olur. Həmçinin, ölkədaxili nəqliyyatın hərəkətində də Covid-19 pasportunun önəmi olacaq. Çünki, bu pasportun tətbiqi insanların təhlükəsizliyinə əminliyi artırır və digər mərhələlərdə daha da yumşaldılmalara gətirib çıxaracaq. Çünki, vaksinasiya olunmuş insanların artması peyvənd olunmayanlara motivasiyadır".

Deputat sözlərinə belə davam edib: "Artıq, hər bir insan normal həyat fəaliyyətinə qayıtmaq istəyir. Vaksinasiya olunmaq insanların iş fəaliyyətinin tənzimlənməsində də rol oynayır. Bu insanlar asanlıqla öz fəaliyyətlərinə davam edəcək. Bunun üçün pasportun alınması vacibdir və mühümdür".

***Ayşən Vəli***

# Sorosun yeni Ermənistan layihəsi - Azərbaycana düşmənçiliyin gücləndirilməsi



**Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Ermənistanın sponsorları bir daha özlərini göstərdi. Onlardan biri də Corc Sorosun Açıq Cəmiyyət İnstitutudur. Bu qurum demokratiya, insan hüquqları kimi cəmiyyət üçün faydalı olan məsələlərin arxasında gizlənməyə çalışır. Onun maliyyəsi ilə fəaliyyət göstərənlər aprelin 20-də AŞPA-nın yaz sessiyasında da özlərini büruzə verdilər.**

Fondun Ermənistanda geniş fəaliyyəti hər kəsə məlumdur. Sorosun maliyyələşdirdiyi deputatlar Azərbaycan və Türkiyə əleyhinə fəaliyyət göstərirlər. Ermənistanda sonuncu hakimiyyət dəyişikliyinin sponsorunun Açıq Cəmiyyət İnstitutu olduğu ehtimalı gündən-günə özünü təsdiqləyir. Onun maliyyəsi hesabına Ermənistanın baş naziri Nikol Paşinyan və komandası artıq demokratiya adı altında ölkədə avtoritar rejim yaradır. Aprelin 21-də Zəngəzur vilayətinin Meğri və Aqark şəhərlərində sakinlər Soros "demokratiyasının'' iç üzünü göstərdi. Həmin gün əhali Paşinyanı adıçəkilən şəhərlərdən qovdu. Aprelin 22-də isə Meğri şəhərinin meri Mxitar Zakaryan tutularaq Yerevana gətirilib. Bu şəhərlərdə mülki vətəndaşlarla görüş keçirib yürüş edə bilməyən Paşinyan Kacaranda hərbçilərlə görüşüb. Bu onu göstərir ki, Sorosun Ermənistanda qurmaq istədiyi demokratiya hərbi-avtoritar rejimə çevrilir. Ermənistanda baş verən son hadisələr həm də Soros demokratiyasının maskasını cırır. Onun vəd etdiyi demokratiya daha çox xaosdur. Fondun bəslədiyi kadrlar isə Türkiyə və Azərbaycana böhtan demək yarışına çıxıblar. Onların belə çıxışları ilə bağlı layihələrini isə fond maliyyələşdirir.

AŞPA-nın yaz sessiyasında "Azərbaycandakı erməni əsirlər''in məsələsi də gündəliyə salınmışdı. Bu məsələni daha çox Fransadan olan deputatlar qabardıblar. Soros Fondunun maliyyələşdirdiyi Ermənistan hakimiyyətinin onlarla əlaqəsi olduğu istisna edilmir. Müzakirəni Fransa Senatının üzvü Alen Milon açıb. O, Azərbaycanda "erməni əsirlər''in qaldığını iddia etməklə Ermənistanın dediklərini təkrarlayıb. Onun həmvətəni Bernar Furnye də Azərbaycana qarşı şər-böhtan atıb.

Azərbaycan tərəfi bu məsələyə çoxdan münasibət bildirib. Rəsmi Bakı ölkədə Ermənistana aid əsirlərin olmadığını dəfələrlə vurğulayıb. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov aprelin 8-də keçirdiyi mətbuat konfransında deyib: "Hərbi əsirlərin qarşı tərəfə verilməsi həll edilib və bu məsələ artıq bağlanıb. Rəsmi Bakı öhdəliklərinə uyğun olaraq, bütün hərbi əsirləri Ermənistana təhvil verib. Biz bu məsələyə necə məsuliyyətli olduğumuzu sübut etdik. Azərbaycan tərəfi 70-dən artıq hərbi əsiri Ermənistana təhvil verib''. Onun sözlərinə görə, hərbçilər hərbi əməliyyatlar zamanı tutulanda əsir hesab edilir, antiterror əməliyyatı nəticəsində tutulanlara əsir deyil, terrorçu deyilməlidir. C.Bayramov vurğulayıb ki, bəyanat imzalandıqdan sonra Ermənistan qoşunlarını Azərbaycan ərazilərinə göndərməyə cəhd edir.

Deməli, Sorosun maliyyələşdirdiyi Ermənistan rəhbərliyi, parlament üzvləri və Fransadan olan deputatlar terrorçuların azadlığa çıxmasına çalışırlar. Bu baxımdan Azərbaycan ərazisində törədilən və ya törədilməsinə cəhd edilən terror aksiyalarını bu fond maliyyələşdirib. Yeri gəlmişkən, bir məsələyə də diqqət çəkmək istərdik. AŞPA-nın bu sessiyasınadək Azərbaycanın Qarabağ bölgəsinin böyük bir hissəsi Ermənistanın işğalı altında idi. 2020-ci ilin yaz sessiyasında və nə də ondan əvvəl təxminən 25 il ərzində AŞPA işğalçı ölkənin ordusunun Azərbaycan ərazisindən çıxarılmasına dair heç bir bəyanat verməyib. Sorosun yetişdirdiyi indiki Ermənistan hökumətinin başçısı Paşinyan qanunsuz olaraq Qarabağa gələndə, oğlu Azərbaycan ərazisində hərbi xidmət keçəndə bu qurum susdu. Qarabağı işğal edəndən sonra nə Soros, nə də onun fondu Ermənistana Qarabağdan çıxın deyə tövsiyə vermədi.

Ümumiyyətlə, noyabrın 10-da imzalanan bəyanatdan sonra bir sıra dövlətlər sanki bir-birinin ağzına baxırmış kimi "əsirlər"in qaytarılmasını təkrarlayırlar. Axı Ermənistan hərbçisinin Azərbaycan torpaqlarında nə işi var idi? Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini soroslar və başqaları niyə seyr edirdilər? Elə həmin dövlətlər, lap elə Corc Soros Fondu sponsoru olduğu Ermənistan hökumətindən minalanmış ərazilərin xəritəsinin Azərbaycana verilməsini niyə istəmir? Yaxud Soros və ermənilərin başqa havadarları və sponsorları niyə bu suallara cavab vermir və ya bu istiqamətdə Ermənistana təzyiq göstərmir - Ermənistan Silahlı Qüvvələrinin Qarabağda nə işi var? Ermənistan noyabrın 10-da götürdüyü öhdəlikləri niyə yerinə yetirmir? Bəyanatın "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir" şəklindəki 4-cü maddəsinə niyə əməl edilmir? Yaxud 9-cu maddə nə vaxt icra olunacaq - "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir''.

Nikol Paşinyanın aprelin 21-də Zəngəzur vilayətinə məlum səfərindən sonra Ermənistan tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində təxribatlar törədilib. Qarabağda separatçıların silahlı qüvvə saxlamasının anlamı nədir? AŞPA-da və başqa beynəlxalq təşkilatlarda Azərbaycana qarşı çıxış edənlər həmin silahlı dəstələrin tərksilah olunmasına niyə çalışmır? Ermənilər bunu təhlükəsizliyi təmin etmək üçün edirlərsə, onda Rusiyanın sülhməramlıları niyə bölgəyə yeridilib? Yoxsa Ermənistan və separatçılar Rusiyaya inanmır? Belə çoxsaylı sualların cavabı Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı iddialarından əl çəkməsi, regional əməkdaşlığa üstünlük verməsindədir. Sponsorları Ermənistanın bu şərti əməl etməsinə çalışmır. Onlar rəsmi Yerevanın Azərbaycan və Türkiyə əleyhinə olmasında daha çox maraqlı görünürlər. Azərbaycanla "əsirləri qaytar" oyunu, Türkiyə ilə "erməni soyqırımı'' saxtakarlığı sorosların ermənilərə verdiyi tezisdir. Təəssüf ki, ələbaxım olaraq tərbiyə edilmiş Ermənistan cəmiyyətinin yetişdirdiyi rəhbərlər də "açıq cəmiyyətlər''in layihələrinin əsiridir.











***Sədrəddin İsmayılov***
***Newtimes.az***

# “SOROS”-a satılmış müxalifət

## Yaxud daha çox qrant almaq düşüncəsi ilə yaşayanlar



30 il mənfur düşmənin əsarətində olan Qarabağımızın 44 gün ərzində dövlət başçımızın “dəmir yumruq” siyasəti ilə Müzəffər Ordumuzun xilaskar əsgər və zabitlərimizin gücü ilə azad olunan bu qələbəni həzm edə bilməyən Vətən, dövlət satqını AXCP sədri Əli Kərimli və “Milli Şura”nın mənəviyyatsızları siyasi partiyaların birgə bəyanatına qoşulmamaqla bir daha xalqımıza qarşı düşmən mövqedə duran qüvvələrin yanında olduqlarını nümayiş etdirdilər. 2020-ci ildə aparılan siyasi dialoqun məntiqi nəticəsi kimi, ilk çağırışla 15 iyul 2020-ci il tarixində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribat nəticəsində müstəqillik tariximizdə son 32 ildə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyalar 43+4, 27 sentyabr tarixində isə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar siyasi partiyalar 50+1 formatında ölkə Prezidentinin, Ali Baş Komandanın ətrafında siyasi həmrəylik göstərərək birgə dəstək bəyanatı imzaladılar. Meydanda tək qalmış erməni xislətli radikal müxalifət ünsürləri - Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla-Arif Yunuslar, Vidadi İskəndərli, Sevinc Osmanqızı... kimi ermənipərəst qüvvələr, müharibə dövründə Azərbaycana qarşı çirkin fəaliyyət göstərənlər, ermənilərə dəstək verən antimilli şuranın havadarları, fərari, xain və satqınlar bu qələbəyə niyə sevinmir? Çünki xəstə ambisiyaları ilə xalqın etibarını itirmişlərdir və qarayaxmaları, anti-milli fəaliyyətləri ölkəmizin uğurlarına heç bir təsir göstərməyib və bundan sonra da göstərməyəcək.

Ancaq dilənçi payı alan, “beşinci kolon” ilə sinxron fəaliyyətdə olan, Soros və Soros kimi ermənipərəst təşkilatlara köləlik edən radikal müxalifət kölə olduqları ağalarına bir daha “sadiqlik” göstərməkdədilər. Sosial şəbəkələrdə ABŞ və Avropada yaşayan həmin qüvvələr aldıqları pulların əvəzini verməyi üçün Azərbaycan hakimiyyətinə qarşı davamlı olaraq şər-böhtan dolu açıqlamalar verirlər. Ancaq həmin qüvvələr bu gün Avropada, okeanın o tayında törədilən qanunsuzluqlara, haqsızlıqlara tətbiq edilən məhdudiyyətlərə susqundurlar. Səbəb də tula payı aldıqları qrantlardan gedir. Daha çox qrant almaq düşüncəsi ilə “SOROS”-a satılmış bu qüvvələr ağızlarına gələni, hətta karantin qaydalarının demokratiyaya zidd olduğunu deyərək Azərbaycan iqtidarını heç bir çərçivəyə sığmayan sözlərlə tənqid edirdilər. Dünyanın heyran olduğu Azərbaycanın Vətən müharibəsindəki mübarizəsinə və qazanılmış Zəfərə, hətta xalqın müqəddəs dəyərlərinə və müqəddəs duyğularına, şəhidlərimizin ruhuna toxunan antimilli qüvvələr ermənipərəst açıqlamalar verməkdən hələ də usanmırlar. Və bununla da Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla-Arif Yunuslar, Vidadi İskəndərli, Sevinc Osmanqızı... erməniyə nökərçilik edənləri xalq çox gözəl bilir və Azərbaycan tarixinin Zəfər səhifələrini yazmış xalq bir gün onları mühakimə edəcəyindən qorxsunlar.

### Nədir AXCP-nin azarı?...

Azarı həmişə bəlli olsa da, elə içində qalıb Əli Kərimlinin azarı. Bu satqın Əli Kərimli deyir ki, “əgər ölkənin daxilində ciddi direniş olmasaydı, bu gün baş verənlər olmayacaqdı. Bunu bilin, biz meydanda olanda dünya bizi eşidəcək!”. Nə qədər rəzil düşüncə! Başqa cür də düşünə bilməz də. Çünki xarici qüvvələrin təsiri altında, onlardan maliyyə asılılığında olan bu satqın, antimilli ünsür və onların təlimatçıları hər cür dövlət mənafeyini satıb, Vətəninə xəyanət edib və edir. Çünki Əli Kərimli üçün xarici anti-Azərbaycan dairələrdən aldığı pullar daha vacibdir. Əli Kərimli və onun ətrafında olan anti-Azərbaycan dairələrin əlaltısı qismində çıxış edən, siyasi fəallığı siyasi satqınlıq kimi qavrayan Arif Məmmədov, Ramiz və Leyla Yunuslar, Cəmil Həsənli, Əli Kərimli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli və bu kimilər açıq şəkildə ermənipərəst mərkəzlərin direktivlərinə əsaslandıqlarını ortaya qoyurlar. Bir həqiqəti anlamaq lazımdır ki, milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri iflasa məhkumdur. Bu gün işğaldan azad edilmiş ərazilərimizin bərpa-quruculuq işlərindən qaşınmaya düşən bu viruslar hələ də anlamırlar ki, Azərbaycan xalqı üçün radikal müxalifət deyilən bir “varlıq” mövcud olmayıb, olmayacaq da! İndi siz deyin, bu gün Qarabağın işğaldan azad olunmasına sevinməyən, erməni vandalizminə, barbarlığına münasibət bildirməyən AXCP və Müsavat dövlətin və xalqın milli maraqlarını necə qoruya bilər? Bu gün həmrəylik nümayiş etdirməyi bacarmayan AXCP-Müsavat cütlüyü dövlətin və xalqın ağır, çətin günündə nə edər? 1993-cü ildə olduğu kimi qaçacaqlarmı, vəzifələrini donduracaqlarmı, torpaqlarımızı satacaqlarmı?.. Bu satılmışlar hansı üzlə sosial şəbəkələrdən çağırışlar edirlər? Amma hələ də anlamırlar ki, xalqımız yanlış yol tutanların bəd əməllərini bağışlamaz və bağışlamır. Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar! Ancaq bu satqın və şərəfsiz Əli Kərimli kimilər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil. Və bu gün sorosun tör-töküntüləri, çör-çöpləri isə əli kərimlilər, əli əliyevlər, cəmillər, sevinclər, qənimətlər kimi ünsürlər xalq tərəfində tarixin zibil yeşiyinə atılanların tarix və zaman tələbi ilə xalqımızın və dövlətimizin mənafeyi, müqəddəs amallarımız, müqəddəs qanunlarımız qarşısında cavab vermələri zamanıdır.

*Rəfiqə HÜSEYNOVA*

## “Milli Şura”da söz sahibi kimdir?



“AXCP sədri Əli Kərimlinin cəbhədəki uğurlarımıza kölgə salması təəssüf doğuran bir haldır. Həmişə qeyd etmişəm ki, iqtidara müxalifətdə olmaq olar, əgər söhbət milli və dövlət maraqlarından gedirsə, onda müxalifətdə olmaq olmaz. Yəni, bu siyasətçiyə yaraşan hal deyil. Bir sözlə, bu halın baş verməsinə təəssüf edirəm”. Bunu SİA-ya açıqlamasında Təkamül partiyasının sədri Teyyub Qənioğlu deyib.

Onun sözlərinə görə, biz kimlərlə qonşu olduğumuzu unutmamalıyıq. Şimaldan Rusiya, cənubda İran və onların üzdə nə deməklərinə baxmayaraq, əslində hansı məkrli siyasət yeritdiklərini nəzərə almaq lazımdır.

“Milli Şura”nın AXCP-nin bir filialı olduğunu demək olarmı” sualına cavab olaraq, T.Qənioğlu bildirdi ki, Cəmil Həsənli “Milli Şura”nın formal sədridir: “İndi hər kəs bilir ki, onu istiqamət verən, “siyasətini” müəyyənləşdirən AXCP-dir. Yəni, onun da müxtəlif şəxsi mənafeləri var. Hansı məqamda irəli çıxmaq lazımdırsa onda irəli çıxacaq. Hələlik bütün tənqidlər C. Həsənliyə yönəlir. Müəyyən bir situasiya yetişəndə Ə. Kərimli önə çıxıb şuranın sədri olacaq, buna heç kəs şübhə etməsin. Bir sözlə, “Milli Şura”da əsas söz sahibi Əli Kərimlidir”.

*Gülyana*

## Diqqət: Ev heyvanları uşaqlara bu cür təsir edir



Həyatlarının ilk illərində heyvanlarla tanış olan, onlarla eyni evdə böyüyən və onlara qulluq edən uşaqlar bir çox fərqli müsbət keyfiyyətlər qazanırlar. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, daha şəfqətli, mərhəmətli, hörmətli və canlıları sevən olaraq böyüyürlər.

Evdə ev heyvanının qayğısına uşağın daxil edilməsi onun məsuliyyət hissini artırır. Əlbətdə ki, uşağa verilən tapşırıqlar yaşa uyğun olmalı və müdaxilə etmədən yerinə yetirilməsinə icazə verilməlidir. Beləliklə, uşaq özünü daha bacarıqlı hiss edir və bu özünə inamın inkişafına kömək edir. Uşaq bu vəzifələri öz üzərinə götürməyə başlayanda tədricən öz muxtariyyətini qazanmağa başlayır. Öz qərarlarını verməkdə özünə daha çox güvənir və qərarlarına görə məsuliyyət daşıyırlar.

### Ev heyvanları empatiya duyğusunu dəstəkləyir

Evdə ev heyvanının olması uşağın empatiya inkişafı prosesinə əhəmiyyətli töhfə verir. Uşaq heyvanın ehtiyaclarını anladıqda və bu ehtiyacları ödəməyə çalışdıqda, empatiya etməyi öyrənir və insanlarla münasibətlərində tətbiq edir. Bundan əlavə, uşağın heyvanlara qarşı empatiya hissini inkişaf etdirməsi, gələcəkdə daha köməkçi və həssas bir şəxsiyyət olmasına imkan verir.

### Ailə münasibətləri ev heyvanları vasitəsi ilə yaxşılaşır

Ev heyvanına qulluq edərkən ailənizə sərf etdiyiniz vaxt da artır. Bu şəkildə övladınızla ünsiyyətinizi artıracaqsınız. Heyvanlar həm də qardaş münasibətlərini müsbət təsir göstərir. Bu şəkildə vəzifələri paylaşmağı və əməkdaşlıq etməyi öyrənirlər. Bundan əlavə, ortaq maraqları var. Əlbətdə ki, ən vacib məqam yalnız uşağın inkişafı üçün heyvanlardan istifadə etmək deyil. Hədəfimiz, ev heyvanınız varsa və ya olacaqsa, uşağınızın inkişafına töhfə verməkdir.

*Ayşən Vəli*

## “Nar” şəhid və qazi ailələrindən olan uşaqlar arasında keçirilən yarışa dəstək oldu



**“Nar” 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid və qazi ailələrindən olan uşaqlar arasında keçirilən “Qəhrəman övladları” yarışına dəstək oldu. “Həmrəy ol, qalib ol” İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan layihənin məqsədi qəhrəman övladlarının həyat tərzini istiqamətləndirmək, fiziki və psixi sağlamlıqlarını inkişaf etdirmək, onların bacarıqlarını ortaya çıxarmaq və idmana olan marağını artırmaqdır.**

Şəhid və qazi ailəsindən olan 16 uşağın iştirakı ilə keçirilən estafet yarışması Qəbələ Şəhər Stadionunda açıq havada baş tutub. Qalib gələn qəhrəman övladları “Nar” tərəfindən mükafatlandırılıb.

Qeyd edək ki, şəhid və qazi ailələrinə xüsusi diqqətin göstərilməsi “Nar”ın sosial layihələrinin əsas istiqamətlərindən biridir. Mobil operator şəhid və qazi ailələrinin sosial qayğı ilə əhatə olunmasını daim diqqət mərkəzində saxlayacaq.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8740-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən “HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib.

# "Fars körfəzi-Qara dəniz" dəhlizi Ermənistana Zəngəzuru qorumağa və blokadadan çıxmağa imkan verəcəkmi?

**İranın təşəbbüskarı olduğu "Fars körfəzi-Qara dəniz" beynəlxalq tranzit dəhlizinin geosiyasi perspektivləri "Sputnik Armenia"nın əməkdaşı Artyom Erkanyan tərəfindən nəzərdən keçirilib. Məqalənin maraqlı olduğunu nəzərə alıb oxucularımıza təqdim edirik.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

İran Xarici İşlər Naziri Məhəmməd Cavad Zərifin İrəvana və Bakıya regional səfəri, ilk növbədə sabitliyi İran üçün son dərəcə vacib olan Sünik (Zəngəzur-E.B.) bölgəsində davam edən sərhəd hadisələrindən qaynaqlandı. Bu bölgədəki siyasi varlıq Tehran üçün prinsipial bir məsələdir. Və bu mənada İslam respublikası rəhbərliyinin təşviq etdiyi "Fars Körfəzi-Qara dəniz" qlobal nəqliyyat dəhlizinin yaradılması layihəsi olduqca böyük əhəmiyyət qazanır. Yerevanda aparılan danışıqlar, görünür, bu layihənin həyata keçirilmə mərhələsinə gətirilməsinə kömək edəcəkdir. Ermənistan qlobal nəqliyyat zəncirinin bir halqasına çevrilməklə hansı geosiyasi üstünlükləri qazana bilər?

Qərblə İran arasındakı münasibətlərin istiləşməsinə meyil yeni reallıqlar yaradır. ABŞ sanksiyalarının ləğvinin İranda iqtisadi böyüməyə səbəb olacağı şübhəsizdir. Ölkənin coğrafi mövqeyi, Asiya bazarlarını Cənub-Şərqi Avropadakı istehlakçılarla birləşdirən böyük bir tranzit mərkəzi olma fürsətinə etibar etməyə imkan verir. İran iqtisadiyyatına 400 milyard dollar sərmayə qoymağı vəd edən Çinlə bağlanmış son müqavilə İranın çiyinlərini tez bir zamanda düzəltməsinə kömək edəcək. Bundan əlavə, İran, Çin mallarının Avropaya çatdırılması üçün Pekində əsas tərəfdaş kimi qəbul edilir. Süveyş Kanalında baş verən son hadisəbir konteyner gəmisinin digər gəmilərin yolunu uzun müddətə bağlaması- daşıyıcıları alternativ variantları düşünməyə sövq etdi.

İranın Avropaya çatmaq üçün bir neçə marşrutu var. Onlardan biri Azərbaycandan - Xəzər dənizi sahillərindən keçir. Bu məqsədlə Qəzvin-Rəşt-Astara dəmir yolu çəkilir, hansı ki, istifadəyə verilməsi göründüyü kimi, uzaqda deyil. Ancaq keçən il Qarabağdakı müharibə, Tehranı mənafeləri İranla həmişə üst-üstə düşməyən Türkyə və Azərbaycanı atlayaraq rabitə qurmağın zəruriliyi barədə düşünməyə vadar etdi. Bu, Ermənistan ərazisindən keçən "Fars körfəzi-Qara dəniz" nəqliyyat dəhlizinin yaradılması layihəsinin aktuallığını izah edir.

Azərbaycanın Ermənistanın Sünik bölgəsinə meyilliliyi danışıqların sürətlənməsinə səbəb oldu. Şübhəsiz ki, Zərifin Paşinyan administrasiyasının nümayəndələri ilə apardığı danışıqlar zamanı bu layihənin perspektivlərinin müzakirəsinə xüsusi diqqət yetirilmişdir. Zərifin səfəri ərəfəsində respublika hökuməti yaxın gələcəkdə İrandan tranzit üçün alınan rüsumların bir neçə dəfə azaldılacağı barədə məlumatı təsdiqlədi. Bu, danışıqların yeni mərhələyə keçməsini göstərən çox vacib bir siqnal idi.

Layihə nədir və iştirakçıları kimlərdir? Ermənistan və Gürcüstandan əlavə, İran əvvəlcə Bolqarıstan və Yunanıstanı əməkdaşlığa cəlb etdi. 2016-cı ildən bu günə qədər bu beştərəfli formatda - Tehran, Sofiya, Tbilisi və Yerevanda beş mərhələ məsləhətləşmələr aparılmışdır.

Hindistan və Çin də layihədən faydalananlar hesab olunur, lakin Dehli və Pekin hələ də məsləhətləşmələrə qoşulmayıb. Təklif olunan logistika aşağıdakılardır: Hindistan və Çindən mallar İranın Bəndər Abbas limanına çatır, oradan Ermənistana avtomobil yolu ilə, daha sonra dəmir yolu ilə Gürcüstanın Potisinə, oradan Qara dənizdən keçərək, Bolqarıstan və Yunanıstan limanları. Nəqliyyat dəhlizinin işləmə prinsiplərinə dair ilkin razılaşma layihəsi artıq hazırdır. Sənədin yaxın gələcəkdə Sofiyada imzalanacağı və daha sonra qalan bütün texniki məsələlərin həlli üçün səlahiyyət veriləcək bir koordinasiya şurası yaradılacağı güman edilir.



Layihənin aşkar üstünlükləri var. Hər şeydən əvvəl, bu dəhlizin mümkün olanların ən qısası olduğu nəzərə çarpır. Bundan əlavə, Ermənistan və İranın heç bir ziddiyyətinin olmadığı və gözlənilmədiyi ölkələrin ərazisindən keçir. İrəvan üçün Sünik bölgəsindən keçən dəhlizin Tehranı bu bölgənin bütövlüyü və təhlükəsizliyini təmin etmək məsuliyyətini hiss etdirməsi son dərəcə vacibdir. Nəqliyyat dəhlizinin fasiləsiz işləməsini təmin etmək ehtiyacı, Tehranın Sünikdəki siyasi və gələcəkdə, hətta hərbi mövcudluq iddiasını əsaslandıracaq qanuni bir motiv verir.

İndi çatışmazlıqlar barədə. Onlar da üzdədirlər. Əsas çatışmazlıq yük daşınmasının çoxmodallığıdır. Konteynerlər bir neçə dəfə yenidən yüklənməlidir, əvvəl yük gəmilərindən qoşqulara, daha sonra dəmir yolu vaqon platformalarına, sonra yenidən yük gəmilərinə, daha sonra yenidən platformalara. Baha başa gəlir və çox vaxt aparır.

İkinci problem maliyyədir. Layihə üçün lazım olan bütün infrastrukturun qurulması üçün 100 milyon dollardan çox pul lazımdır. İran bütün xərcləri öz üzərinə götürməyəcək. Göründüyü kimi, ölkələrin hər biri işi öz ərazisində maliyyələşdirəcəkdir. Bolqarıstan hökuməti artıq öz vəsaitlərindən istifadə edərək Burqas və Varnada xüsusi terminallar tikməyə hazır olduğunu təsdiqləyib.

Gürcüstan əlavə investisiya qoyulmadan işə başlaya bilər. Limanları və yolları, prinsipcə, lazımi tələblərə cavab verir.

Nəqliyyat infrastrukturu hələ belə bir qlobal layihədə iştirak etmək üçün lazım olan səviyyədən çox uzaq olan Ermənistanla daha çətindir. Bizim vəzifəmiz Şimal-Cənub magistral yolunun inşasını ən qısa müddətdə başa çatdırmaqdır; hansı ki, 2016-cı ildə başa çatdırılması planlaşdırılırdı. Keçən illər ərzində marşrutun 490 kilometrindən 100-ə yaxını çəkilib, keçən ilin yayında yenidən inşaat işləri aparılıb, lakin heç kim işin başa çatma vaxtı barədə konkret bir şey deməyə cürət etməyib. Asiya İnkişaf Bankı və Avropa İnvestisiya Bankı tərəfindən verilən kreditlər yetərli olmaya bilər.

Şimal-Cənub avtomobil yolunun tikintisinə dəstək Ermənistan-İran danışıqlarının əsas mövzularından biri oldu. Tehrana səfəri zamanı Baş nazir Nikol Paşinyan prezident Həsən Ruhani ilə məsələni müzakirə etdi. Martın 19-da Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur nazirinin müavini Armen Simonyan İran xarici işlər nazirinin müavini Möhsün Baharvəndlə eyni mövzuda danışdı. 19 aprel tarixində İran İslam Respublikası Yollar və Şəhərsalma Nazirliyinin Tranzit şöbəsinin müdiri Amin Tarfa bu mövzunu İrəvanda müzakirə etdi. 16 mayda Ermənistan səfiri Artaşes Tumanyan 24 mayda İrəvana səfər edən yollar naziri Məhəmməd Eslami ilə məsləhətləşmələrini davam etdirdi. Zərifin səfəri zamanı, görünür, bir sıra ən əsas məsələlər həll edildi.

Qlobal nəqliyyat layihəsi bütün qonşu dövlətlərin maraqlarına təsir göstərir. Regiondakı geosiyasi proseslərin ən vacib iştirakçısı kimi Rusiyanın maraqları da gözardı edilə bilməz. Bəzi ekspertlər nəqliyyat dəhlizinin Moskvanı ciddi narahat etdiyinə inanırlar, çünki bu layihə Rusiyadan yan keçərək bir marşrut yaratmaq üçün hazırlanmışdır.

"Reportyor" nəşri yazır: "Tehran bu işdə uğurlu olarsa, böyük bir logistika mərkəzi ola bilər və bu, əhəmiyyəti kəskin şəkildə azalacaq Rusiyaya ciddi bir zərbə olacaq".

Ancaq hər kəs bu fikirlə razı deyil. Məsələn, iqtisadçı Stanislav Tkaçenko "layihənin tamamilə Rusiyanın maraqlarına cavab verdiyinə" və Moskvanın "ən azından onun həyata keçirilməsinə mane olmayacağına və bəlkə də vəsait yatıracağına" əmindir.

İndiyə qədər Rusiya layihəyə görünən bir maraq göstərməyib. Ancaq Rusiya ilə Gürcüstan arasında nəqliyyat əlaqələrini bərpa etmək üçün real şanslar yaranan kimi İran-Ermənistan layihəsi dərhal Moskva üçün cəlbedici olacaq. Dövlət Dumasının Avrasiya İnteqrasiyası Komitəsi sədrinin 1-ci müavini Konstantin Zatulin bu yaxınlarda Abxaziya ərazisindən rabitənin bərpası perspektivlərinin müzakirə edilməsinin təsadüfi olmadığını söylədi.

Tiflis və Moskva arasında dialoq aparmaq üçün səlahiyyətli olan danışıq iştirakçılarına təkan verən "Fars Körfəzi - Qara dəniz" dəhlizi ilə bağlı müqavilənin yaxın zamanda imzalanması istisna deyil. Bildiyiniz kimi, mayın 21-də xüsusi nümayəndələr Zurab Abaşidze və Qriqori Karasinin növbəti iclası baş tutdu. Rəsmi press-relizin mətninə görə, digər məsələlərlə yanaşı, Qarabağ müharibəsinin nəticələrindən sonra üçtərəfli bəyanatın imzalanması nəticəsində ortaya çıxan yeni reallıqlar baxımından nəqliyyat layihələrinin perspektivlərini nəzərdən keçirdilər.

Abaşidze "Sputnik Armenia"ya verdiyi müsahibədə tərəflərin Abxaziya və Cənubi Osetiya üzərindən nəqliyyat dəhlizlərindən istifadə etmədən məsələni həll etmək üçün hazırlanmış 2011-ci ildə bağlanmış Rusiya-Gürcüstan sazişinin həyata keçirilməsi mexanizmlərinin müzakirəsinə qayıtmağa hazır olduqlarını bildirdi.

Gələcəkdə Abxaziya üzərindən davam edib etməyəcəyindən asılı olmayaraq Gürcüstanın layihəyə marağı sabitdir. Tbilisi, Qarabağdakı 44 günlük müharibə nəticəsində yaranan reallığın onu bölgənin əsas tranzit mərkəzi kimi statusundan məhrum edə biləcəyini başa düşür. Baş nazir İrakli Qaribaşvilinin Bakıya səfəri zamanı İlham Əliyev onu inandırmağa çalışdı ki, Naxçıvan və Məğri ərazisindən keçən dəmir yolunun istifadəsi Gürcüstanın mənafeyinə xələl gətirməyəcək.

Ancaq bəzi ekspertlər fərqli düşünür. Azərbaycan Respublikaçı Alternativ Partiyasının lideri İlqar Məmmədov bu yaxınlarda nəqliyyat layihələri reallaşacağı təqdirdə Gürcüstanın zərər görəcəyini və "bölgədə yeni bir geosiyasi kimlik axtarmalı olacağını" söylədi.

"Vesti Kavkaza" qəzeti isə Gürcüstanın Qarabağ münaqişəsi nəticəsində regional bir tranzit mərkəzinə çevrildiyini və Naxçıvan dəhlizi istifadəyə verildikdə Gürcüstanın regional əhəmiyyətinin azalacağını yazır. Bu proqnoz reallığa çevrilənə qədər Tbilisi tələsik tranzit ölkə statusunu qorumaq üçün yeni yollar axtarır. Bu mənada "Fars körfəzi-Qara dəniz" layihəsi Gürcüstan üçün ən yaxşı çıxış yoludur.

Bölgədə İran, Ermənistan, Gürcüstan və Bolqarıstanın ortaq planlarına məqsədyönlü və ardıcıl maneçilik törədən yalnız iki ölkə var. Bunlar Azərbaycan və Türkiyədir. Bakı və Ankara bu dəfə bütün bölgəyə öz iradələrini tətbiq edə biləcəklərmi?

***Tərcümə - Elçin Bayramlı***

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

2 iyun

QARABAĞ AZƏRBAYCANDIR!

# Ali Koç: “Bu, Emre üçün də haqsızlıq olar”



İstanbulun “Fənərbaxça” futbol klubunun prezidenti Ali Koç Emre Belözoğlunun komandanın baş məşqçisi vəzifəsində qalıb-qalmayacağı ilğə bağlı sualları cavablandırıb.

Türkiyənin “NTV Spor” idman saytının xəbərinə görə, o, açıqlamasında yollarına Belözoğlu ilə davam etməyəcəklərini bildirib: “Emre Belözoğluna minnətdaram. Bizdən əvvəl də etdiyi hər şeyə görə təşəkkür edirəm. Mən onu idarəçi olanda da tanımışam, idarəçi olmayanda da tanıyırdım. Prezident olduğum müddətdə daha yaxından tanımaq fürsətim oldu. 10-15 il sonra Belözoğlu çox uğurlu olacaq. Amma indi bu riski ala bilmərik. Bu, Emre üçün də haqsızlıq olar”.

Qeyd edək ki, Emre Erol Bulutun mart ayında istefaya göndərilməsindən sonra istanbul təmsilçisini çalışdırır. Komanda mövsümü 2-ci pillədə tamamlayıb.

MARAQLI FAKTLAR

# Gəzinti, yoxsa qaçış daha sürətli arıqladır?



**Çəki atmaq üçün məşqlərdə ən çox ağla gələn sual “Gəzmək yoxsa qaçmaq sizi daha sürətli arıqladır?” sualıdır. Araşdırmalar gəzmək və ya qaçmaq arasında bəzi fərqlərin olduğunu ortaya çıxarıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, bu fərq o qədər də böyük deyil.**

Arıqlamaq istəyirsinizsə, mütləq idman etməlisiniz. Bunun üçün hər gün idman salonlarına gedirik, gəzirik, qaçırıq və müqavimət məşqləri edirik. İdman etməklə çəki atmaq marafonunuzda bir az çətin ola bilər. Xüsusilə, də qaçmaq daha yorucudur. Arıqlamaq istəyənlər idman etməkdə çətinlik çəkdikləri üçün tez-tez yeriməyə üstünlük verirlər.

## Bəs, gəzinti daha sürətli arıqladır, yoxsa qaçmaq?

Arıqlamaq üçün kalori yandırmaq lazımdır. İdman etməklə də kalori yandıra bilərsiniz. Çəkiniz, sürətiniz, məsafəyə qaçış kimi amillər yandırdığınız kaloriyə təsir edir. Bu faktorlara əlavə olaraq qaçdığınız məsafə kimi yamaclarda qaçmaq da kaloriyə təsir göstərir.

## Təsir və yük fərqi

Normal səviyyədə gəzmək eyni sürətlə qaçışdan daha az enerji sərf etməyə imkan verir. Qaçışla gəzinti arasındakı dinamikalar bir-birindən tamamilə fərqlidir. Qaçarkən hər iki ayağınız yerdə olduğundan bədəninizdə təsir və yük artır. Gəzinti zamanı bu təsir və yük artımı son dərəcə azdır. Sürətli yürüşün qaçış və gəzinti ilə müqayisədə daha təsirli olduğunu iddia edən araşdırmalar da var.

Sürətlə yeriyəndə və qaçanda yandırdığınız kalori arasında böyük bir fərq yoxdur. Beləliklə, vaxtınız varsa, qaçmış kimi sürətlə gəzərək kalori yandıra bilərsiniz.

Qaçışla gəzinti arasında başqa bir müqayisə etsək, qaçışın bədənə daha çox yük verdiyini, ağciyər və ürək əzələlərinin yükünü artırdığını söyləyə bilərik. Bu, qaçışı daha təsirli edir. Çəkinizə görə oynaqlarınızı gərginləşdirmək istəmirsinizsə, gəzməyi, formada qalmaq üçün qaçmağı seçə bilərsiniz. Hər iki halda da, demək olar ki, eyni kalori yandırırsınız.

*Ayşən Vəli*

# DİN sosial şəbəkələrlə bağlı məlumat yaydı




**Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkələrdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan cinayətkar şəxslərin niyyəti ilə bağlı mətbuatın sorğusuna münasibət bildirib.**

DİN-in mətbuat xidmətinin kütləvi-informasiya vasitələri və ictimaiyyətlə əlaqələr şo?bəsinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a açıqlamasında deyib ki, narkotiklərin qanunsuz dövriyyəsi əsasən latent (gizli) cinayətlər kateqoriyasına daxildir. Bu istiqamətdə daxili işlər orqanlarının əməkdaşları tərəfindən kompleks əməliyyat-axtarış, əməliyyat-profilaktik tədbirlər bütün sahələrdə davam etdirilir. Təəssüf ki, bəzən narkotiklərin alqı-satqısı ilə məşğul olan şəxslər özləri kölgədə qalmaq üc?ün sadəlövh insanları sosial şəbəkələrdə ələ alaraq cinayətkar niyyətlərinə ortaq edirlər. Bu zaman seçilmiş qurban şəxsiyyəti məlum olmayan cinayətkarın “insanpərvərliyinə”, “qayğısına”, yalan vədlərinə inanaraq istəmədən cinayətin iştirakçısına çevrilir, tapşırıqları icra (kuryerlik) edir, narkotik vasitələri bir ündən digərinə çatdırır.

“Bütün bunları nəzərə alaraq, ümumilikdə vətəndaşları, o cümlədən sosial şəbəkə istifadəçilərini diqqətli və məsuliyyətli olmağa, ayrı-ayrı şəxslərin yalan vədlərinə inanmamağa çağırırıq.

Şəxs cinayət başında tutularkən “bilmədim”, “aldadılmışam”, “mənə köməyi dəyib, düşünməzdik ki, belə edər...”, - deyə əməlinə bəraət qazandırmağa çalışsa da, bilməlidir ki, bu, onu cinayət məsuliyyətindən azad etmir”, - deyə E.Hacıyev diqqətə çatdırıb.

# Məşhur aktrisa məcburiyyətdən - CİPİNİ SATDI

Türkiyəli məşhur aktrisa Didem Kınalı, keçən gün yaşadığı Cihangirdə kameralara tuş gəlib. Kirayə haqqını və işıq pulunu ödəyə bilmədiyini deyən Didem Kınalı cipini 485 min TL-yə satışa qoyduğunu vurğulayıb. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bir reportajda kirayə haqqını və elektrik xərclərini ödəyə bilmədiyini, hökumətə kömək üçün elektron müraciət etdiyini şərh edən Didem Kınalı, hələ işləyə bilməyəcəyini və bu səbəblə cipini satışa qoyduğunu qeyd edib.



Didem Kınalı cipini maddi çətinlik yaşadığı üçün satmaq istədiyini və onu bir avtomobil satış mərkəzinə təhvil verdiyini deyib. Məşhur Didem Kınalı 2012-ci il model Land Rover cipinin 485 min TL-yə satışa çıxarıldığı qeyd edib.

“Covid-19” epidemiyası səbəbi ilə işsiz olduğu üçün maşınını satacaq xəbərləri ilə gündəmdə olan Didem Kınalı fikirlərini belə ifadə edib: “Bəli, biraz səbr edə bilərəm amma daha səbr kasam daşıb. Anama, qardaşlarıma və özümə baxıram, buna görə də işləməliyəm”.

*Lətifə Abdıyeva*

# Qonşusunun evindən oğurluq edən keçmiş məhkum tutuldu



Göyçay rayonunun Ulaşlı Şıxlı kəndində fərdi evdən məişət əşyalarının oğurlanması barədə polis şöbəsinə müraciət daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, oğurluğu törətməkdə şübhəli bilinən şəxs - zərərçəkmişin qonşusu, əvvəllər məhkum olunmuş Bəhruz Fərzəliyev müraciətlə əlaqədar keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Onun metal qəbulu yerlərinə satdığı həmin əşyalar maddi sübut kimi götürülüb. Faktla bağlı araşdırma aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600